## Güclü duman mane oldu

Naxçıvana uçan sərnişin təyyarəsi Bakıya geri qayıdıb



**Əlverişsiz hava şəraiti (güclü duman) səbəbindən, "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) J2-2251 nömrəli Bakı-Naxçıvan reysini yerinə yetirən hava gəmisinin kapitanı uçuş hava limanına qayıtmağa qərar verib.**

AZAL-ın mətbuat xidmətindən verilən məlumata görə, təyyarə dünən saat 21:37-də Heydər Əliyev Beynəlxalq Hava Limanında eniş edib. Hava şəraiti yaxşılaşdıqdan sonra sərnişinlər Naxçıvana yola düşəcəklər.

*Qeyd edək ki, dünən Naxçıvanı bürüyən güclü duman AZAL-ın bu istiqamətdə həyata keçirdiyi reyslərinin gecikməsinə səbəb olub.*

## Türkiyə və Azərbaycan ali təhsildə yeni əməkdaşlığı planlaşdırır



**Türkiyənin Ali Təhsil Şurasının rəhbəri Erol Özvar Azərbaycanın təhsil naziri Emin Əmrullayevlə görüşüb.**

Bu barədə Erol Özvar özünün tviterdəki səhifəsində bildirib.

Erol Özvar görüşün Bakıda baş tutduğunu vurğulayıb. O, qeyd edib ki, görüşdə iki ölkə arasında ali təhsil sahəsində planlaşdırılan yeni əməkdaşlıqla bağlı fəaliyyət müzakirə olunub.


❐ № 219 (5501), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 dekabr 2021-ci il (çərşənbə)




## Prezident hərbi helikopter qəzası ilə bağlı başsağlığı verib

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə başsağlığı verib.**

Başsağlığı mətnində deyilir:

"2021-ci ilin noyabrın 30-da Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həyat üzvlərinin həlak olması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu ağır itkinin acısını Sizinlə yaşayır, dərdinizi bölüşür, Sizə və doğmalarınıza Mehriban xanım ilə birlikdə dərin hüznlə başsağlığı veririk.

**Allah rəhmət eləsin!".**



## Ərdoğan Prezident İlham Əliyevə zəng edib

**Noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Türkiyə Prezidenti helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verib, həlak olanların ailə üzvlərinə səbr diləyib və yaralıların tezliklə sağalmasını arzulayıb.

Azərbaycan Prezidenti başsağlığına görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

## BMT rəsmisi Azərbaycana başsağlığı verib



**"Xızıda faciəvi helikopter qəzası xəbəri kədərləndirdi".**

Bunu BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva özünün tviterdəki hesabında yazıb.

"Yaxınlarını itirən ailələrə dərin hüznlə başsağlığı verir. Xəsarət alanların tezliklə sağalmasını arzu edirik", - BMT rəsmisi əlavə edib.

*Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı ərazisində qəzaya uğraması nəticəsində 2 nəfərin yaralanması, 14 nəfərin isə həlak olması faktı ilə bağlı Baş Prokurorluq, Hərbi Prokurorluq və DSX-nın peşəkar əməkdaşlarından ibarət istintaq qrupu yaradılıb.*

# Xızıda hərbi helikopter qəzası

## Hadisə nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb





### Prokurorluq: Helikopterin "qara qutu"su tapılıb, hər hansı kənar müdaxilə istisna olunur

**Dünən saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Hadisə nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb.**

Qəza nəticəsində aşağıdakı hərbi qulluqçular həlak olub:

1. polkovnik Cavadov Fizuli Əli İbram oğlu;
2. polkovnik Nəzirov Emil Nəzir oğlu;
3. mayor Həsənov Elmir Mircəlil oğlu;
4. mayor Əhmədov Elbrus Səmrəddin oğlu;
5. mayor Mayılov Emil Şahid oğlu;
6. mayor Məmmədov Murad Yaşar oğlu;
7. mayor Əliyev Emil Elman oğlu;
8. tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu;
9. kapitan Bayramlı Cavid Əhliman oğlu;
10. kapitan Əliyev Xəyyam Əlixan oğlu;
11. kapitan Qaraisayev Teymur Ənvər oğlu;
12. leytenant Süleymanov Abdulla Telman oğlu;
13. baş leytenant Nağıyev Fərid Təyyar oğlu;

(səh.2)



## Şarl Mişel: "Aİ "Şərq Tərəfdaşlığı"nın ən etibarlı tərəfdaşıdır"

**"Avropa İttifaqı "Şərq Tərəfdaşlığı"nın ən etibarlı tərəfdaşıdır".**

"Report"un Gürcüstan bürosu xəbər verir ki, bunu Aİ Şurasının Prezidenti Şarl Mişel tviter hesabında yazıb.

O, islahatlar, insan hüquqları və qanunun aliliyinin əməkdaşlığın təməl daşı olduğunu qeyd edib.

Ş.Mişel bu gün Brüsseldə Gürcüstan, Ukrayna və Moldovanın Baş nazirləri - İrakli Qaribaşvili, Denis Şmiqal və Natalia Qavrilita ilə görüş keçirib.

## Millət vəkilləri, DİN həyəcan təbili çaldı

### Narkotika istifadəçilərinin sayı statistikada göstəriləndən çoxdur



Dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və Səhiyyə komitələrinin birgə iclasında "Narkomaniya ilə mübarizə ailə sağlamlığının təminatıdır" mövzusunda dinləmə keçirilib. Dinləmədə vitse-spiker Adil Əliyev, komitə sədrləri - Hicran Hüseynova və Əhliman Əmiraslanov, Narkoloji Mərkəzin baş direktoru Orxan Cəfərov, Dini Komitə sədri Mübariz Qurbanlı, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov və digər qurum rəsmiləri iştirak ediblər.

(səh.3)

## Zaqatalada ailə faciəsi

Ailə dəm qazından zəhərləndi, 9 yaşlı qız öldü



**Zaqatalada bir ailənin üç üzvü dəm qazından zəhərlənib.**

APA bildirir ki, hadisə günorta saatlarında Zaqatala şəhəri, Nizami küçəsi 88 ünvanında baş verib. İlkin məlumata görə, həmin ünvanda kirayədə yaşayan rayonun Suvagil kənd sakinləri olan 1988-ci il təvəllüdlü Lena Ramazan qızı Kərimova, onun iki övladı - 2010-cu il təvəllüdlü Polad Eldəniz oğlu Məmmədov və 2012-ci il təvəllüdlü Aylin Eldəniz qızı Məmmədova dəm qazından zəhərlənib. Zəhərlənənlərdən 9 yaşlı Aylin Məmmədova hadisə yerində ölüb. L. Kərimova və 12 yaşlı P. Məmmədov Zaqatala Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. Vəziyyətləri orta-stabil qiymətləndirilir.

## Daha 1 678 nəfər COVID-19-a yoluxub

23 nəfər ölüb, 1 934 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 678 yeni yoluxma faktı qeydə alınıb, 1 934 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 23 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 588 318 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 554 749 nəfər müalicə olunaraq sağalıb, 7 856 nəfər vəfat edib. 25 713 nəfər aktiv xəstə sayını təşkil edib.*



## "Azərbaycan sülh müzakirələrində problem görmür"

"Erməni cəmiyyətinin təmsilçiləri yenə əvvəlki mövqedən çıxış edəcəklərsə, yaxud yeni reallıqlarla barışmaq istəməyəcəklərsə, bu müzakirələr fayda verməyəcək, əksinə, ziyanlı olacaq"

(səh.2)

## Zaman lazım olacaq

"Qara qutu"dakı məlumatları gizlətmək mümkün deyil"

(səh.4)



# Xızıda hərbi helikopter qəzası

**Hadisə nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb**






## Prokurorluq: Helikopterin "qara qutu"su tapılıb, hər hansı kənar müdaxilə istisna olunur

**Dünən saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Hadisə nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb.**

*Qəza nəticəsində aşağıdakı hərbi qulluqçular həlak olub:*

1. polkovnik Cavadov Fizuli Əli İbram oğlu;
2. polkovnik Nəzirov Emil Nəzir oğlu;
3. mayor Həsənov Elmir Mircəlil oğlu;
4. mayor Əhmədov Elbrus Səmrəddin oğlu;
5. mayor Mayılov Emil Şahid oğlu;
6. mayor Məmmədov Murad Yaşar oğlu;
7. mayor Əliyev Emil Elman oğlu;
8. tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu;
9. kapitan Bayramlı Cavid Əhliman oğlu;
10. kapitan Əliyev Xəyyam Əlixan oğlu;
11. kapitan Qaraisayev Teymur Ənvər oğlu;
12. leytenant Süleymanov Abdulla Telman oğlu;
13. baş leytenant Nağıyev Fərid Təyyar oğlu;
14. işçi Nəbiyev Elçin Fikrət oğlu.

*Hadisə zamanı polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlu və kapitan Ədilov Ramin Ramiz oğlu yaralanıb.*

Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 2 nəfərin yaralanması, 14 nəfərin isə həlak olması faktı ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işinə başlanıb.

Bu barədə məlumatı Baş Prokurorluq yayıb.

Məlumatda qeyd olunur ki, istintaqın hazırki mərhələsində müəyyən edilib ki, noyabrın 30-u saat 10 radələrində döyüş təlimlərinin keçirilməsi məqsədilə uçuş həyata keçirmək üçün havaya qalxmış DSX-ya məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna olunur.

Hadisənin pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş hər hansı texniki nasazlıq, hava şəraiti, o cümlədən hər-hansı digər səbəbdən baş verməsi ilə bağlı bütün ehtimallar ətraflı yoxlanılır.

Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-ballistik, məhkəmə-texniki-yanğın və məhkəmə-tibb ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilmiş, Müdafiə Nazirliyindən cəlb olunmuş mütəxəssis tərəfindən qara qutunun götürülməsi təmin edilməklə hazırda onun tədqiqi aparılır.

Eyni zamanda Baş Prokurorluq, Hərbi Prokurorluq və DSX-nın peşəkar əməkdaşlarından ibarət yaradılmış istintaq qrupu tərəfindən zərərçəkmiş Emil Cəfərov və Ramin Ədilovun dindirilmələri təmin edilmiş, iş üzrə müvafiq ekspertizalar təyin edilib, o cümlədən zəruri sorğular verilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Baş prokurorun birinci müavini Elçin Məmmədov jurnalistlərə açıqlamasında deyib ki, helikopter qəzası ilə bağlı şahidlərin dindirilməsi və hadisə yerinə baxışın keçirilməsi təmin olunur.

Onun sözlərinə görə, həlak olanların meyitlərinin müayinəsi həyata keçirilib. Hazırda zəruri istintaq tədbirləri həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində həlak olanların nəşləri Səhiyyə Nazirliyinin Bakıda yerləşən Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə gətirilib.

Meyitlər müayinə olunduqdan sonra ailələrinə təhvil verilib.

Qeyd edək ki, hərbi helikopterin qəzaya uğraması zamanı yaralanan iki nəfər hazırda Dövlət Sərhəd Xidmətinin (DSX) hospitalındadırlar.

Bu barədə DSX-nin rəis müavini İlham Mehdiyev məlumat verib.

Hadisə zamanı yaralanan polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlu və kapitan Ədilov Ramin Ramiz oğlunun vəziyyətindən danışan DSX rəisinin müavini deyib: "Onlar ayaq üstədirlər".

Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev də baş vermiş helikopter qəzası ilə bağlı açıqlama verib.

O, deyib ki, Dövlət Sərhəd Xidmətinin helikopteri təlim məqsədi ilə "Qaraheybət" təlim mərkəzinə eniş edərkən qəzaya uğrayıb.

General vurğulayıb ki, helikopter qəzasına səbəb kimi hər hansısa kənar təsirdən söhbət gedə bilməz.

Onun sözlərinə görə, hadisənin səbəbləri haqda hələlik dəqiq bir şey demək mümkün deyil.

"İlkin məlumatlar haqqında onu demək istəyirəm ki, pilot polkovnik Fizuli Cavadov ən yüksək səviyyədə, ağır şəraitdə uçuşlarda təcrübəsi olan pilotumuz idi. Birinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edib. O ki qaldı helikopterin sazlığına, helikopter təzə idi və qısa müddət əvvəl təmir işləri aparılıb.

Hazırda qara qutunun hissələri Baş Prokurorluqdadır və onun üzərində araşdırmalar aparılacaq, hadisənin baş vermə səbəbi daha da dəqiqləşəcəkdir", - deyə E.Quliyev qeyd edib.

Elçin Quliyev bildirib ki, Prezident İlham Əliyev helikopter qəzasının səbəblərinin daha ətraflı araşdırılması, həlak olanların dəfn mərasimi və xəsarət alanların müalicəsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Dəfn tədbirləri sabah (bu gün) gün ərzində valideynlərlə məsləhətləşərək həyata keçiriləcək.

Elçin Quliyev onu da bildirib ki, helikopter qəzasında həlak olanlara qanunvericiliyə əsasən şəhid statusu veriləcək.

DSX rəisi qeyd edib ki, təlim zamanı həlak olan hərbçilərə qanunvericiliyə uyğun olaraq, şəhid statusu verilir.



# "Azərbaycan sülh müzakirələrində problem görmür"

"Erməni cəmiyyətinin təmsilçiləri yenə əvvəlki mövqedən çıxış edəcəklərsə, yaxud yeni reallıqlarla barışmaq istəməyəcəklərsə, bu müzakirələr fayda verməyəcək, əksinə, ziyanlı olacaq"

**Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel Azərbaycan-Ermənistan münasibətlərindən danışıb. O bildirib ki, Aİ münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli üçün səylərin daha da gücləndirilməsini dəstəkləyir:**

"Avropa İttifaqı münaqişələrin qarşısını almaq və mövcud münaqişələrin həllinin tapılmasına kömək prosesində öz rolunu oynamağa həmişə hazırdır. Bura etimadın yaradılması, dayanıqlı və hərtərəfli həll yolunun tapılmasına töhfə vermək və postmünaqişə reabilitasiyası istiqamətində addımların atılmasına dəstək vermək daxildir". Mişel Azərbaycan və Ermənistanı dialoqa çağırıb: "Azərbaycan və Ermənistan arasında münasibətlər vəziyyətin nə dərəcədə kövrək olduğunu göstərir. Mən inanıram ki, yalnız siyasi dialoq dayanıqlı həll yoluna apara bilər". Aİ rəsmisi vurğulayıb ki, bu istiqamətdə Ermənistan və Azərbaycandakı vətəndaş cəmiyyətlərinin də üzərinə iş düşür: "Onlar bir araya gələrək cəmiyyətlər arasında körpü qurulması və barışıq səylərinə kömək edə bilərlər". Məlum olduğu kimi məhz Aİ Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə Azərbaycan-Ermənistan rəhbərliyi arasında görüş keçiriləcək. Görüşə günlər qalmış Mişelin regionla bağlı açıqlamaları, tərəflərə çağırışı, xüsusən iki ölkənin vətəndaş cəmiyyətlərini dialoqa, körpü qurmağa səsləməsi diqqət çəkir.

**Siyasi şərhçi, "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi (SİAM) İctimai Birliyinin sədri Zaur İbrahimli hesab edir ki, Şarl Mişelin çağırışı Azərbaycanın regionda davamlı sülhə nail olmaq səyləri ilə uzlaşır.** Analitikin fikrincə, Azərbaycan üçün əsas məsələ ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində suverenliyini təmin etməkdir: "İşğala məruz qalan tərəf olmasına baxmayaraq, Azərbaycan 44 günlük Vətən müharibəsindən əvvəl də Ermənistanla vətəndaş cəmiyyəti müstəvisində, dini liderlər səviyyəsində müzakirə və danışıqlardan imtina etmirdi. Postmüharibə dövründə də bu cür təşəbbüslərdən imtina etmirik. Moskvada hər iki ölkənin dini liderləri müzakirələr aparıblar. Azərbaycan Ermənistana dinc birgəyaşayışın bərqərar olması ilə bağlı təkliflər irəli sürüb. 44 günlük müharibə dövründə humanitar dəyərlərə, prinsiplərə ciddi əməl etmişik, mülki əhaliyə qarşı silah işlətməmişik. Hazırda Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında yaşayan ermənilərin təchizatı məsələlərinə də humanitar prinsiplər əsas götürülməklə yanaşılır. Bu baxımdan cəmiyyətlər səviyyəsində təmaslar, müzakirələrin aparılması Azərbaycan tərəfi üçün məqbuldur. Yalnız əsas şərt öz ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində suverenliyinin hər hansı müzakirə mövzusu olmamasıdır".

**Z.İbrahimli qeyd edib ki, Azərbaycan multikultural, tolerant dəyərləri ilə bütün dünyada tanınır:** "Bu sahədə Azərbaycanın nümunəsi öyrənilir, təqdir edilir. Azərbaycan öz erməni vətəndaşlarının inteqrasiyası, dinc birgəyaşayış məsələləri, kommunikasiyaların açılması, minaların təmizlənməsi, quruculuq işləri, dövlətlərarası sərhədlərin delimitasiya məsələlərində erməni cəmiyyətinin təmsilçiləri ilə müzakirəni məqbul sayır. Baxmayaraq ki, Azərbaycan torpaqları 30 il erməni işğalına məruz qalıb, hələ də Birinci Qarabağ savaşında əsir götürülən və itkin düşmüş vətəndaşlar barədə ermənilər məlumat verməyiblər, xalqımıza məxsus mədəni-tarixi abidələr talan edilib və s. Amma sülh naminə Azərbaycan müzakirələrdə problem görmür. Lakin erməni cəmiyyətinin təmsilçiləri yenə əvvəlki mövqedən çıxış edəcəklərsə, yaxud yeni reallıqlarla barışmaq istəməyəcəklərsə, bu müzakirələr fayda verməyəcək, əksinə, ziyanlı olacaq. Erməni cəmiyyəti buna hazırdırmı? Əsas sual budur, yaxşı olar Aİ erməni cəmiyyətinin konstruktiv müzakirələrə təşviqi ilə bağlı səylər göstərsin".

**İsmayıl Qocayev**



## Qarabağın bərpasında Pakistan şirkətlərinin iştirakı müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın müdafiə istehsalatı naziri xanım Zobaida Cəlalla görüşüb.**

Pakistanlı nazirlə sənaye sahəsində əməkdaşlığın inkişafı perspektivləri müzakirə edilib. Eyni zamanda işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən layihələrdə Pakistan şirkətlərinin iştirakı barədə ikitərəfli fikir mübadiləsi aparılıb.

## Aİ-nin xüsusi nümayəndəsi Ermənistanda səfərdədir

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar Ermənistanda səfərdədir.**

APA-nın xəbərinə görə, bu barədə T. Klaar "Twitter"də bildirib.

İrəvana səfəri çərçivəsində Aİ-nin xüsusi nümayəndəsi Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

Görüşdə dekabrın 15-də Brüsseldə keçiriləcək "Şərq Tərəfdaşlığı" Sammiti kontekstində qarşıdan gələn görüşlərə hazırlıq məsələləri müzakirə olunub.

## Türk Dövlətləri Təşkilatı Azərbaycana başsağlığı verib

**Azərbaycanda dünən Dövlət Sərhəd Xidmətinə aid helikopterin qəzaya uğraması xəbərini kədərlənərək öyrəndik.**

Bu barədə təşkilatın "Twiter" səhifəsində qeyd olunub.

"Bu faciəvi qəzada həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa, qardaş Azərbaycan xalqına və qəhrəman Silahlı Qüvvələrinə dərin hüznlə başsağlığı bildiririk", - deyə paylaşımda bildirilib.

## İsrail səfiri də Azərbaycan xalqının dərdinə şərik oldu



**İsrail səfiri Corc Dik hərbi helikopter qəzası ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib.**

İsrail diplomatı bu barədə "Twitter"də paylaşım edib.

"Xızıda baş vermiş faciəvi helikopter qəzası xəbəri bizi dərindən kədərləndirdi. Düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin yanındadır. Azərbaycan xalqına və hökumətinə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayırıq. Allah rəhmət eləsin!", - qeyd olunub.

*Xatırladaq ki, noyabrın 30-da DSX-nin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğrayıb.*

# Soçi və Aşqabad görüşü yeni reallıqlar yaradır

**Azərbaycanın diplomatik uğurları davam edir. Soçi görüşünün ardınca, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Türkmənistanın paytaxtı Aşqabadda keçirilən 15-ci Zirvə görüşündə əldə etdiyimiz müsbət nəticələr uğurlarımızın davamlı olduğunu təsdiqləyir.**

Zirvə toplantısı Azərbaycanın öz geo-iqtisadi maraqlarını təmin etmək baxımından, Zəngəzur dəhlizi ilə bağlı həqiqətləri beynəlxalq birliyin diqqətinə çatdırmaq nöqteyi-nəzərindən çox əlverişli və səmərəli platforma oldu. Bu platformada təmsil olunan dövlətlərin Azərbaycanla dostluq, müttəfiqlik nümayiş etdirməsi, 44 günlük müharibə nəticəsində torpaqlarımızın işğaldan azad edilməsinə görə Azərbaycanı təbrik etmələri olduqca təqdirəlayiq hadisədir. Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyevin bir sıra dövlət başçıları ilə səmərəli işgüzar görüşlərini, o cümlədən Türkmənistan qazının İran üzərindən Azərbaycana daşınmasına dair üçtərəfli sazişin imzalanmasını ayrıca qeyd etmək lazımdır.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı həqiqətləri dost ölkələrin diqqətinə çatdırmaqla yanaşı, İranla yaşanan gərginliyi pozitiv münasibətlərə çevirdi.** Partiya sədrinin sözlərinə görə, ölkə rəhbəri Aşqabad sammitinin imkanlarından maksimum səmərəli istifadə etdi: "Bu mənada İƏT-in son toplantısı Azərbaycan üçün daha uğurlu nəticələrlə yadda qaldı. Başqa sözlə desək, Azərbaycan Aşqabad görüşünün hərəkətverici və təkanverici qüvvəsi rolunda çıxış etdi. Azərbaycanın mehriban qonşuluq münasibətlərini önə çəkməsi bir çox regional və beynəlxalq miqyaslı layihələr üçün əlverişli zəmin yaradır. Məhz rəsmi Bakının yürütdüyü qarşılıqlı faydalı əməkdaşlıq siyasəti həm İranı, həm də Orta Asiya respublikalarını müştərək layihələrə sövq edir. Eyni zamanda onların Avropanın qaz təminatında, enerji təhlükəsizliyində daha yaxından rol almalarına şərait yaradır. Hazırda Azərbaycan beynəlxalq layihələrə yol açan ölkə kimi diqqət mərkəzindədir. Ölkəmiz hazırda region ölkələri arasında dostluq və əməkdaşlığın açarı, körpüsü rolunu oynayır. Soçi və Aşqabad görüşləri Azərbaycanın bölgə üçün yeni reallıqların müəllifi kimi imkanlarını bir daha üzə çıxardı".



"Rəsmi Bakının yürütdüyü qarşılıqlı faydalı əməkdaşlıq siyasəti həm İranı, həm də Orta Asiya respublikalarını müştərək layihələrə sövq edir"

**İsmayıl Qocayev**

# Taleyin ümidinə buraxılan sərnişinlər...

## Sürücü avtobusu narkotikanın təsiri altında idarə edirsə, bu yüzlərlə insanı ölümlə üz-üzə qoymaq deməkdir



“Sərnişindaşımanı həyata keçirən şirkət də məsuliyyətə cəlb olunmalı, lisenziyası ləğv edilməlidir”

**Koronavirus pandemiyasının geniş miqyasda yayılmasının qars?ısının alınması məqsədi ilə Daxili İşlər Nazirliyinin müvafiq Baş İdarə və idarələrinin əməkdaşları tərəfindən Sumqayıt şəhəri, həmçinin Abşeron rayonunun kənd və qəsəbələrindən paytaxt istiqamətində hərəkət edən sərnişin avtobuslarında reydlər keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, avtobuslarda yalnız polis əməkdaşını görən zaman tənəffüs yollarını qoruyan maskalardan istifadə edən, bununla da virusun yayılmasına şərait yaradan sürücü və sərnişinlərin aşkar edilməsi üçün tədbirə mülki geyimli əməkdaşlar da cəlb olunub. Sumqayıt şəhərindən paytaxta doğru hərəkət edən avtobuslarda aparılan yoxlamalar zamanı nəqliyyat vasitəsinin salonunda olarkən maskadan istifadə etməyən şəxslər mülki geyimli polislər tərəfindən müəyyən edilib. Onlar barəsində inzibati tədbir görülüb. Xırdalan şəhərindən paytaxt istiqamətində hərəkət edən avtobuslarda keçirilən tədbir zamanı sanitar-karantin qaydalarına əməl etməyən sürücü və sərnişinlər də aşkar edilib. Tənəffu?s yollarını qoruyan maskalardan istifadə etməyən s?əxslərlə profilaktik so?hbətlər aparılıb barələrində inzibati tənbeh tədbirləri tətbiq olunub. Abşeron rayonu Qobu qəsəbəsindən paytaxt istiqamətində hərəkət edən sərnişin avtobuslarında aparılan yoxlama zamanı isə polis əməkdaşları tərəfindən daha ciddi qayda pozuntuları aşkar edilib. 567 saylı marşrut xətti ilə Qobu qəsəbəsindən paytaxt istiqamətində hərəkət edən sərnişin avtobuslarında nəzarət-profilaktik tədbirlər həyata keçirilən zaman sürücü və sərnişinlər arasında pandemiya qaydalarına əməl edilmədiyi məlum olub. Eləcə də sürücülərdən bir neçəsinin peyvənd olunmadan sərnişindaşıma fəaliyyəti ilə məşğul olduqları müəyyən edilib. Aparılan yoxlama zamanı həmin xətt üzrə hərəkət edən 3 avtobusun sürücüsünün nəqliyyat vasitəsini sərnişinlərin həyatını təhlükə altına qoyaraq narkotik vasitələrin təsiri altında idarə etdiyi aşkarlanıb. Həmin sürücülərin idarə etdiyi avtobuslar xətdən kənarlaşdırılıb, özləri isə saxlanılaraq Qobu Polis Bölməsinə gətiriliblər. Onların etdiyi qanun pozuntusuna hüquqi qiymət verilməsi üçün toplanan materiallar məhkəməyə göndərilib. Keçirilən sonuncu profilaktik tədbir zamanı Sumqayıt şəhəri və Abşeron rayonundan paytaxt istiqamətində hərəkət edən 70-ə yaxın sürücü və sərnişin sanitar-karantin rejiminə əməl etmədiyi üçün barələrində inzibati tədbir görülüb.

**Nəqliyyat problemləri üzrə ekspert İlqar Hüseynli ”Şərq”ə açıqlamasında qeyd etdi ki, sürücü sərnişin nəqliyyatını narkotik vasitənin təsiri altında idarə edirsə, məsuliyyət həm də daşıyıcı şirkətin üzərindədir:**

- Çox yaxşı haldır ki, DİN reydlər keçirir, bu cür eybəcər faktları ortaya çıxarır. Sərnişin nəqliyyatı idarə edən sürücünün narkotik vasitə qəbulu, həm də sükan arxasında, iş başında olduğu bir vaxtda, yüzlərlə insanın həyatını təhlükəyə atması, ölümlə üz-üzə qoyması deməkdir. Buna görə təkcə sürücü deyil, həm də sərnişindaşımanı həyata keçirən şirkət, həmin xətt üzrə avtobusların hərəkətinə cavabdeh olanlar məsuliyyətə cəlb edilməlidir. Ümumiyyətlə, sərnişindaşımanın normativlərinə görə sürücülər hər 6 aydan bir tibbi müayinədən keçməlidirlər, o cümlədən də narkoloji müayinədən. Amma nə baş verir? Sürücülər tibbi yoxlamadan keçmədən, müxtəlif yollarla arayış əldə edib şirkətə təqdim edirlər. Şirkətlər də işçi qıtlığı səbəbindən tibbi müayinələrə səhlənkar yanaşır, dəqiq müayinə cavabları tələb etmirlər. Çünki sürücülərin iş saatları, iş rejimləri, şəraitləri elə aşağı səviyyədə və ağırdır ki, şirkətlər işçini itirmək istəmir. Çox zaman sürücü kiçik bir avtomobil əldə edib fərdi qaydada sərnişindaşıma ilə məşğul olmağı hansısa avtobusda sürücülük etməkdən üstün tutur. Ona görə sürücülüyə işə qəbul zamanı normativlər gözlənilmir. İctimai nəqliyyatda sürücülük etmək üçün müvafiq kateqoriyası olmayanları da işə götürürlər. Nəticə də belədir: ictimai nəqliyyatın idarə edilməsini, sərnişinlərlə davranış qaydalarını bilməyən, məsuliyyətsiz, kobud sürücülər və təəssüf ki, qəzalar.

**İ.Hüseynli bildirdi ki, narkotik vasitələrin təsiri altında avtobus idarə edən sürücülər barədə çox güman ki, siqnal və ya şikayət daxil olub:**

- Yol polisləri sürücünün sərxoş olub-olmadığını yoxlamaq üçün alkometrdən istifadə edir. Sürücünün sərxoş olması, əslində davranışlarından, avtomobili idarə etməsindən də bilinir. Amma yenə də bu işdə yol polisinin köməyinə alkometrlər çatır. Narkotik vasitə isə fərqlidir. Doğrudur, narkotik istifadəçisinin davranışlarını təqib etməklə də bunu müəyyənləşdirmək mümkündür. Lakin məsuliyyət üçün dəqiq faktlara sahib olmaq vacibdir. Çox güman ki, adıçəkilən marşrut xətti üzrə narazılıq olub, sərnişinlər sürücülərin davranışlarından, avtobusu idarə etməsindən narazılıqlarını bildiriblər, DİN-də bu barədə faktlar mövcud olub və nəhayət, reyd zamanı həmin sürücülər aşkarlanıb və məsuliyyətə cəlb ediliblər. Lakin iş bununla bitməməlidir. Sərnişindaşımanı həyata keçirən şirkət də məsuliyyətə cəlb olunmalı, lisenziyası ləğv edilməlidir.

**Məlahət Rzayeva**



# Şübhələr var

## “İran rəsmilərinin bəyanatlarında hələ də əlaqələrin normallaşması haqda konkret fikir olmadığı hiss olunur”

**Prezident İlham Əliyevin Aşqabadda İran rəhbəri İbrahim Rəisi ilə görüşündən sonra cənub qonşumuzla münasibətlərin normallaşma mərhələsinə qədəm qoyacağı gözlənilir. Rəsmi Tehrandan da pozitiv açıqlamalar gəlməkdədir.**

İran parlamentinin üzvü Əhməd Əlireza Beygi deyib ki, Prezident İbrahim Rəisi hökumətinin xarici siyasətə rasional yanaşması və ümumən rəftarın dəyişməsi ilə qonşu ölkələr, xüsusilə, Azərbaycan və Türkiyə ilə münasibətlərin inkişafına ümid yaranıb. Onun sözlərinə görə, ölkənin iqtisadi inkişafı üçün vacib strategiyalardan biri qonşu ölkələrlə yaxşı, tarazlı, inkişafda olan əlaqələr, habelə dini, milli-etnik, mədəni və sosial ortaqlıqlar vurğulanmalıdır: ”İranın bölgədəki coğrafi mövqeyi, Türkiyə və Azərbaycan Respublikası da daxil olmaqla, bütün yaxın ölkələrlə iqtisadi və siyasi əlaqələrə malik olmağımızı bizdən tələb edir. Hər iki tərəfin xalqları və dövlətləri bu əlaqələrdən faydalana bilməlidir”. Beygi İranın qonşu ölkələrlə əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb: ”Bu ölkələrlə bir çox ortaq cəhətlər ölkənin diplomatik aparatının daimi diqqətində olmalıdır. Xarici əlaqələrdə simmetriyanın gözlənilməsi mühüm çağırışlardan biridir. Təəssüf ki, əvvəllər bu, qonşu dövlətlərlə müxtəlif gərginliklərlə nəticələnib. Bu baxımdan İran və Azərbaycan Respublikası bir millət və iki dövlətdir. Bu unikal tarixi fürsətdən əlaqələri genişləndirmək üçün ən yaxşı şəkildə istifadə edilməlidir”.

**İran-Azərbaycan əlaqələrinin normallaşma ehtimalından danışan politoloq Azər Qasımov ”Şərq”ə deyib ki, Azərbaycan öz qonşuları ilə həmişə xoş münasibətlər yaratmaqda maraqlı olub.** Rəsmi Bakı hətta Ermənistanla belə normal əlaqələr qurmaqda, münasibətlərdə yeni səhifə açmaqda maraqlı olduğunu dəfələrlə qeyd edir, sülhdən danışır: ”Hesab edirəm ki, İran dövləti regionda konstruktiv mövqedən çıxış etməkdə maraqlı olmalıdır. İranla yaşanan son gərginlikdən sonra səslənən xoş mesajların səmimiliyinə inanmaq istəyirik. Çünki normal əməkdaşlıq regionun bütün dövlətləri üçün lazımdır. Azərbaycanın İranla hərtərəfli əməkdaşlıq niyyətində olmasına və səmimiliyinə şübhə yoxdur. Azərbaycan İrana qarşı koalisiyalarda, planlarda yer almayıb, qonşu ölkəyə tətbiq olunan sanksiyaların əleyhinə olduğunu söyləyib. Bundan sonrakı münasibət İranın bizə yanaşmasından asılı olacaq. Tehrandan hansı münasibəti görəcəyiksə, qarşılığı o cür olacaq. Hesab edirəm ki, İran dövləti apardığı siyasətin yanlış olduğunu anlayacaq və eyni münasibəti Azərbaycana göstərəcək. Sözün açığı, İran rəsmilərinin bəyanatlarında hələ də əlaqələrin normallaşması haqda konkret fikir olmadığı hiss olunur. Əslində İran dövləti qəti və əmin şəkildə bu haqda danışmalı idilər. Görünür, müəyyən şübhələr qalmaqdadır. Buna baxmayaraq, düşünürəm ki, zamanla ikili əlaqələrdə tərəddüdlər tamamilə aradan qaldırılacaq”.

**Azər Qasımov:**
“Tehrandan hansı münasibəti görəcəyiksə, qarşılığı o cür olacaq”



**İsmayıl Qocayev**

# Millət vəkilləri, DİN həyəcan təbili çaldı

## Narkotika istifadəçilərinin sayı statistikada göstəriləndən çoxdur



“Sosial şəbəkələrdə narkotiklərin satıldığı səhifələr xaricdən idarə olunur”

**Dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və Səhiyyə komitələrinin birgə iclasında ”Narkomaniya ilə mübarizə ailə sağlamlığının təminatıdır” mövzusunda dinləmə keçirilib. Dinləmədə vitse-spiker Adil Əliyev, komitə sədrləri - Hicran Hüseynova və Əhliman Əmiraslanov, Narkoloji Mərkəzin baş direktoru Orxan Cəfərov, Dini Komitə sədri Mübariz Qurbanlı, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov və digər qurum rəsmiləri iştirak ediblər.**

**“Narkomaniya ilə mübarizə ümumbəşəri xarakter daşıyır”**

**Milli Məclis sədrinin müavini Adil Əliyev ölkəmizdə narkomaniya ilə mübarizə sahəsində görülən işlərdən danışıb və bildirib ki, bu mübarizə çərçivəsində maarifləndirmə işinə xüsusi diqqət yetirilməlidir:** ”Məktəblərdə, mətbuatda narkomaniya ilə mübarizə üçün görülən işlərin genişləndirilməsinə ehtiyac var. Sənədli filmlərin hazırlanıb yayımlanması, maarifləndirmənin əhatə dairəsinin genişləndirilməsi, sosial şəbəkələrdə qısa videoçarxların hazırlanıb paylaşılması narkomaniya ilə mübarizəyə dəstək verə bilər”.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, ailə sağlam olmasa, cəmiyyət də sağlam olmaz. Ailənin sağlamlığının qorunması üçün sosial, iqtisadi tibbi sahələrdə olan problemlər həll edilməli və ailəyə dəstək verilməlidir. O bildirib ki, narkomaniyaya qarşı mübarizə hər zaman olub: ”Din sahəsində bu istiqamətdə müqəddəs kitablarda da qeydlər var. Bu istiqamətdə ən düzgün mübarizəyə inam və inandırmaqla nail ola bilərik. Bütün dinlərə aid olan kitablarda uyuşdurucalara qarşı çıxışlar olub. Narkomaniya ilə mübarizə ümumbəşəri xarakter daşıyır”.

**“Hamımız rəqəmlər qarşısında acizləşirik...”**

**Deputat Rəşad Mahmudov bildirib ki, dünyada hər bir ölkə üçün mübarizə aparılması çox çətin olan problemlərdən biri də narkomaniya ilə mübarizədir.** Onun sözlərinə görə, regionumuz da bu bəladan əziyyət çəkən regiondur: ”Beynəlxalq təşkilatlar da bu problemlə mübarizədə fərqli üsullardan istifadə edir. Amma bu gün biz hamımız rəqəmlər qarşısında acizləşirik”. R.Mahmudov konkret problemin həlli üçün pilot layihə hazırlanmasını təklif edib: ”Ölkəmizin bir regionunda bu problemin həlli üçün nə edə bilərik, ona baxaq. Rayonda gənclər deyir ki, narkomaniya ilə mübarizədə alternativlərimiz çox azdır”.

MM-in Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova beynəlxalq təcrübədə narkotik istifadəçilərinə pasiyent, xəstə kimi yanaşıldığını bildirib: ”Bizdə isə onlara daha çox pozuntu törədən şəxs kimi baxılır. Narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır”. H.Hüseynova bu məsələdə mövcud olan dövlət proqramlarının daha da təkmilləşdirilməsinə, işləkliyinin təmin edilməsinə ehtiyac olduğunu deyib.

**“Narkomanların sayı artır və bunun bir çox səbəbi var”**

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə narkomaniya ilə mübarizə çərçivəsində tibbi sahədə aparılan işlərdən və çatışmazlıqlardan danışıb.** O, tibb sahəsində görüləcək işlərlə bağlı təkliflər verib. Vurğulayıb ki, bu sahələrdə olan boşluqlar narkotik aludəçilərinin sayını artırır. Komitə sədri qeyd edib ki, gələcəkdə bu sahədə uğur qazanmaq istəyiriksə, bu işlə mübarizə aparan qurumlar bir-biri ilə əlaqəli çalışmalıdır: ”Narkotiklə mübarizə çərçivəsində görülən işlərə baxmayaraq, statistika göstərir ki, belə insanların sayı artır. Bunun bir çox səbəbi var. Əsas səbəblərdən biri də yeni çeşidli narkotiklərin dövriyyəyə buraxılmasıdır. Bu sahələrdə olan boşluqlar narkotik aludəçilərinin sayını artırır. Təkcə ABŞ-da narkotikin yüksək dozasından hər il 47-48 min insan dünyasını dəyişir. İkinci tərəfdən biz bilirik ki, statistika bütün bu insanları əhatə etmir. Böyük qrup insanlar bu statistikadan kənarda qalır. Bunun həllinə kompleks məsələ kimi baxmalıyıq. Gələcəkdə bu sahədə uğur qazanmaq istəyiriksə, bu işlə mübarizə aparan qurumlar bir-biri ilə əlaqəli çalışmalıdır. Dünyada bu sahədə fəaliyyət göstərən bir çox qurum var. Biz o qurumlarla da işləməli, onların təcrübəsindən yararlanmalıyıq”.

**”Dini tədbirlərdə antinarkotik mövzusunda çıxışlara geniş yer verilsə, yaxşı olar”**

**Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov isə bildirib ki, narkomaniya cinayətkarlığın artmasına səbəb olur və bütövlükdə milli təhlükəsizliyə təhdiddir.** Onun sözlərinə görə, narkotik istifadəçilərinin sayı statistikada göstəriləndən çoxdur: ”Cari ilin 10 ayı ərzində Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 55 min 600 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 2981 nəfərindən 2193-nün istifadəçi olması müəyyən edilib”. İ.Hümbətov qeyd edib ki, narkomaniyaya qarşı mübarizədə dövlət orqanları ilə bərabər, cəmiyyət də aktiv iştirak etməlidir: ”Müxtəlif dini tədbirlərdə də antinarkotik mövzusunda çıxışlara geniş yer verilsə, yaxşı olar. Eyni zamanda, narkotik istifadəçisi olmuş və sonradan normal həyata qayıtmış şəxslərlə media sahəsində müsahibələr təşkil olunması da bu mübarizənin bir növü olardı. Ölkənin inzibati rayonlarında yaşayan gənclərin işlə təmin olunması, həmin rayonlarda idman və digər sahələrin inkişaf etdirilməsi nəticəsində həmin gənclərin boş vaxtının qalmasının qarşısı alına bilər. Təhsil müəssisələrində narkotiklə bağlı tibbi müəssisələrin təşkil edilməsini, təhsil alanların mütəmadi olaraq narkotikə qarşı tibbi müayinədən keçirilməsini təklif edirik. Narkotiklə əlaqədar cinayətə görə həbs edilmiş şəxslərin digər məhbuslarla bir yerdə saxlanılması da məqsədəuyğun deyil. Çünki onlar digər məhbusların ailə üzvləri ilə əlaqələr quraraq ölkədə narkotikin yayılmasına cəhd edirlər. Narkotiklə mübarizə üçün təkliflərimiz əsasında tərəfimizdən hazırlanan qanun layihələri Nazirlər Kabinetinə təqdim edilib”.

**“Onların da çox hissəsini metamfetamin və heroin təşkil edir”**

Daxili İşlər Nazirliyinin rəsmisi bildirib ki, aşkar olunmuş güclü təsirə malik narkotikin 99 faizi cənub sərhədlərindən daxil olan heroin və tiryəkdir: ”Dövlət sərhədinin 132 km-lik sahəsi uzun illər işğal altında olub. Uzun illər erməni işğalında olan bu ərazilərdə separatçılar tərəfindən narkotik satışı üçün şərait yaradılmışdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunmasından sonra dövlət sərhədlərimizin qorunması təmin edilib”. İdarə rəisi bildirib ki, ancaq bundan sonra dövlətimizin digər sərhədlərinə narkotiklə bağlı təhdidlər artıb: ”Məlumat üçün deyim ki, aşkar olunan güclü təsirə malik narkotik maddələrin 99 faizi cənub sərhədlərindən daxil olan heroin və tiryəkdir. Bunların da çox böyük hissəsinin ölkəyə daxil olması üçün sərhədlər bərpa olunduğuna görə digər sərhədlərə təhdidlər olub. Bu təhdidlərin böyük hissəsinin qarşısı alınıb. Təkcə DİN ötən illə müqayisədə ton yarımdan çox narkotik vasitə dövriyyədən çıxarıb. Onların da çox hissəsini metamfetamin və heroin təşkil edir”.

**“Gənclərimizə çağırış etmək lazımdır ki, ehtiyatlı olsunlar”**

**İslam Hümbətov deyib ki, məktəblərdə antinarkotik təbliğatı ilə bağlı tədbirlər həyata keçirilir.** Hazırda DİN-in hər bir əməkdaşı narkotiklə mübarizəyə vicdanla yanaşır. İdarə rəisi yetkinlik yaşına çatmayan şəxslərin siqaret və digər narkotik vasitələrdən istifadəsi ilə bağlı məsələyə də toxunub: ”Bununla bağlı da müəyyən profilaktik işlər aparılır”. Dövriyyədən çıxarılan narkotikin miqdarının əvvəlki illərlə müqayisədə qat-qat çox olduğunu deyən İ.Hümbətov internetdə narkotik vasitələrin satışı məsələsindən də danışıb: ”Sosial mediadan istifadənin xeyirli tərəfi ilə yanaşı, ziyanlı tərəfi də var. Sosial şəbəkələrdə satılan narkotik vasitələrin səhifələri xaricdən idarə olunur. Bu sahədə hamımız ayıq olmalıyıq. Gənclərimizə çağırış etmək lazımdır ki, ehtiyatlı olsunlar. DİN-də bununla bağlı yeni şöbə yaradılıb. Sosial şəbəkələrdə narkotik satan səhifələrlə bağlı araşdırmalar aparılır”.

**İsmayıl Qocayev**

# Zəngəzur dəhlizi reallığa çevrilir

Cümşüd Nuriyev: "Ərdoğanın "Araz boyu" ifadəsini işlətməsi təsadüfi deyil"



## "Türkiyəyə, İğdıra çıxışımız üçün heç bir problem yoxdur"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkmənistandan qayıdarkən jurnalistlərin suallarını cavablandırıb. Ərdoğan bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev onunla söhbətində Soçidə üçtərəfli görüşün yaxşı və məhsuldar keçdiyini bildirib.**

Türkiyə lideri bir sıra məqamlara diqqət çəkib və bəyan edib ki, Araz çayı boyunca dəmiryolu, avtomobil yolunun çəkilməsi məsələsi də öz həllini tapdı: "Atılacaq addımla bərabər İğdıra qədər də magistral yolun çəkilməsi məsələsi var. Magistral yolun çəkilməsi ilə Naxçıvan problemi həll ediləcək, digər tərəfdən isə Ermənistan torpaqlarından keçməklə Azərbaycanın İğdır ilə əlaqəsinin qurulması çox uğurlu addım olacaq. Bundan başqa, istər avtomobil yolu, istərsə də dəmir yolu ilə insan və yük daşımalarında mühüm addım atılacaq".

**Ərdoğanın dəhlizlə bağlı açıqlamasını "Şərq"ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Zəngəzur dəhlizi gec-tez, zorla, yaxud xoşluqla mütləq açılacaq.** Professorun qənaətincə, Ərdoğan Rusiya rəhbəri Vladimir Putinlə arasındakı görüşdə dəhliz məsələsinin müsbət həllinə nail olub: "Azərbaycanla Rusiya və İran arasında hətta dövlət səviyyəsində bir müddət öncə yaşanan gərginlik yavaş-yavaş aradan qalxır. Kreml rəhbəri Türkiyə lideri ilə görüşdən sonra öz yanaşmasında və mövqeyində xeyli düzəlişlər edib. Əlbəttə, Moskvanın tamamilə islah olunduğunu demək olmaz. Amma ən azından hazırda Azərbaycanın maraqlarına uyğun addımlar atır. Rusiya ilə hər hansı problemin, qarşıdurmanın marağında deyilik. Moskvanın da bölgədə iqtisadi maraqları var. Soçi görüşündə və Aşqabad sammitində dövlət başçısı İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı açıq mesajları, bütün maneələrin aradan qaldırıldığını bəyan etməsi çox önəmli idi. Eyni zamanda qardaş Türkiyə Prezidenti cənab Ərdoğan da Zəngəzur dəhlizi haqqında mühüm açıqlamalar verdi. Ərdoğanın "Araz boyu" ifadəsini işlətməsi təsadüfi deyil. Sovet vaxtı Azərbaycanla Naxçıvanı birləşdirən sərhəd boyunca uzanan dəmiryol xətti və avtomobil yolumuz var idi. Məqsədimiz həmin marşrutu yenidən bərpa etməkdir. Hazırda Azərbaycan tərəfi Horadiz-Ağbənd dəmir yolunu bərpa etməklə məşğuldur. Gələn ilin sonuna yol açıla bilər. Türkiyəyə, İğdıra çıxışımız üçün heç bir problem yoxdur".

*C.Nuriyevin sözlərinə görə, dəhlizin açılmasının siyasi-iqtisadi və mənəvi əhəmiyyəti var:* "Dəhliz Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasına gətirib çıxaracaq, yeni iqtisadi imkanlar yaradacaq. Azərbaycan Türkiyə üzərindən Aralıq dənizinə çıxış əldə edir. Bundan sonra Rusiya, Gürcüstan, Azərbaycan və Ermənistan İran üzərindən fars körfəzinə çıxış imkanına sahib olacaqlar. Azərbaycan Orta Asiya ölkələri ilə Türkiyə arasında növbəti dəhlizi yaratmaqla Türk Dövlətləri Təşkilatının vahid iqtisadi məkanını yaratmış olur. Bütövlükdə türk dünyasının torpaq və mənəvi birliyi yaranır. Zəngəzur dəhlizi gələcəyə hesablanmış çox perspektivli layihədir. 2023-cü ilədək dəhlizin açılması ehtimalı çox yüksəkdir".

**İsmayıl Qocayev**

**Hərbi helikopterin qəzaya uğramasının ilkin səbəbi açıqlandı. Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 2 nəfərin yaralanması, 14 nəfərin isə həlak olması faktı ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.**



# Zaman lazım olacaq

## "Qara qutu"dakı məlumatları gizlətmək mümkün deyil"

Baş Prokurorluqdan "Şərq"ə daxil olan məlumata görə, istintaqın hazırkı mərhələsində müəyyən edilib ki, noyabrın 30-u saat 10 radələrində döyüş təlimlərinin keçirilməsi məqsədilə uçuş həyata keçirmək üçün havaya qalxmış DSX-ya məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna olunur.

Hadisənin pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş hər hansı texniki nasazlıq, hava şəraiti, o cümlədən hər hansı digər səbəbdən baş verməsi ilə bağlı bütün ehtimallar ətraflı yoxlanılır. Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-ballistik, məhkəmə-texniki-yanğın və məhkəmə-tibb ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, Müdafiə Nazirliyindən cəlb olunmuş mütəxəssis tərəfindən qara qutunun götürülməsi təmin edilməklə hazırda onun tədqiqi aparılır. Eyni zamanda Baş Prokurorluq, Hərbi Prokurorluq və DSX-nın peşəkar əməkdaşlarından ibarət yaradılmış istintaq qrupu tərəfindən zərərçəkmiş Emil Cəfərov və Ramin Ədilovun dindirilmələri təmin edilib. İş üzrə müvafiq ekspertizalar təyin edilib, o cümlədən zəruri sorğular verilib. Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir. İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Qeyd edək ki, qəzaya uğrayan hərbi helikopterin "qara qutu"su tapılıb.

"Qaraheybət" sərhədə yaxın bir yer olmadığından, zənnimcə, bu, təxribat deyil"

**Məlum helikopter qəzası ilə bağlı "Şərq"ə danışan Şair Ramaldanov bildirib ki, bunun bir sıra səbəbləri ola bilər:**

"Hava şəraiti, pilotun idarəetməni itirməsi, texniki səbəblər, terror və s. amillər. İndiki halda terror aktı olma ehtimalını istisna edirik. Qalır üç versiya. İstintaq prosesi davam etdiyi üçün bunların da hər biri sadəcə ehtimal oluna bilər".

**Polkovnik helikopterlərin "qara qutu"ları haqqında da danışıb:**

"Bu "qara qutu"larda bütün məlumatlar əks olunur. Onları gizlətmək mümkün deyil. Deşifrə etdikdən sonra əsas səbəblər ortaya çıxır. Bunun üçün də zaman lazım olacaq. Hazırda bu mövzuda hansısa qeyri-dəqiq informasiya çatdırmaq düzgün olmaz".

Ş.Ramaldanov dünyada hərb sahəsində baş verən belə məqamlara diqqət çəkib:

"Elə bir ölkə yoxdur ki, onun ordusunda bu cür hallar baş verməsin. "Qaraheybət" sərhədə yaxın bir yer olmadığından, zənnimcə, bu, təxribat deyil. Hazırda rəsmi açıqlama olmadan mövzu barədə fikir səsləndirmək çətindir".

Sonda polkovnik qəzada həlak olan hərbçilərin ailələrinə başsağlığı verib.

**Günəş Mərd**

# Narko-tacirlərin güclü "arxaları" var

**Zeynal Məmmədli:** "Bizim kanallar zəhmət çəkib xarici efirləri izləsinlər"



**Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov televiziyaların fəaliyyətini tənqid edib. Getdikcə ciddi problemə çevrilən və cəmiyyətdə daha çox yayılan narkomaniya ilə bağlı həyəcan təbili çalan komitə rəhbəri vurğulayıb ki, bu sahədə KİV-lərin, ələlxüsus telekanalların üzərinə böyük məsuliyyət düşür. Lakin televiziya kanalları bu sahəyə diqqət ayırmırlar:**

"Bu gün məni narahat edən məsələ narkomaniyadan əziyyət çəkən insanlara tibbi xidmətin vəziyyətinin nə səviyyədə olmasıdır. Onlara müalicə göstərə bilirlərmi?! Bu sahədə vəziyyət necədir? Təhsil müəssisələri ilə daha ciddi işləməliyik. Bu sahədə böyük problem var. Bizim televiziya kanallarımız, media bu işlərin öhdəsindən gələ bilmir. Televiziya kanallarımızda hər şeyə vaxt tapırıq, amma bu məsələyə vaxt ayırmırıq. Hər birimiz bu böyük bəla ilə ciddi mübarizə aparmasaq, hər birimizin qapısını döyəcək".

**Media mütəxəssisi, professor Zeynal Məmmədli "Şərq"ə açıqlamasında deputat Əhliman Əmiraslanovun fikirləri ilə razılaşdığını deyib. Ekspert vurğulayıb ki, komitə sədri narkomaniya ilə bağlı efirləri tənqid etməkdə çox haqlıdır:** "Təəssüflər ki, Azərbaycanda narkomaniyanın miqyası çox böyükdür. Bu barədə qorxunc göstəricilər var. Narkomaniya koronavirus qədər təhlükəlidir. Amma bu gün televiziyalarımız bilgiləndirməkdən daha çox vaxt "öldürməklə", əyləndirməklə məşğuldurlar. Əslində efirlərdə gördüyümüz əyləncə proqramlarının da keyfiyyəti çox aşağıdır. Televiziyalarımız məlumatlandırmır və nəsə anlatmır. Xəbərlər proqramlarında hər gün narkotik alverçilər, onların yaxalanması, neçə qram narkotik maddənin ələ keçirilməsi ilə bağlı informasiyalar verilir. Efirlərdə bu cür xəbərlərin çəkisi o qədər çoxdur ki, eşidəndə mat qalırsan ki, Azərbaycanda narkomaniya bu həddə necə çatıb?! Televiziya aparıcıları DİN-in mətbuat xidmətinin xəbərlərini redaktəsiz, uzun-uzadı, qarışıq cümlələrlə efirlərdən oxuyurlar. Bəzən cümlə o qədər uzun olur ki, aparıcının bitirməyə nəfəsi çatmır. Rəsmi xəbərlərin verilməsində istisnasız olaraq bütün televiziyalar bərbad gündədir. Millət vəkili narkomaniya ilə bağlı iradlarında tamamilə haqlıdır. Öncəliklə AZTV və İTV bu sahəyə xüsusi diqqət yönəltməli, ciddi yanaşmalıdır. Bu iki kanal büdcədən maliyyələşdiyi üçün reklam qayğıları olmur. Deməli, əllərində bəhanələri də yoxdur".

**Professor vurğulayıb ki, çox vaxt telekanallarda filan qədər narkotik maddələrin ələ keçirildiyi ilə bağlı xəbərlər verilir. Amma həmin maddələrin sonrakı aqibəti haqda məlumat olmur:** "Bəlli olmur ki, ələ keçirilən narkotikanın başına nə gəldi, məhv edildimi, yandırıldımı? Bununla bağlı efirlərdə video-süjetlər görmək mümkün deyil. Belə olanda cəmiyyətdə şübhələr yaranır ki, görəsən, narkotik maddələr yenidən tədavülə buraxıldı?! Narko-tacirlərin güclü "arxalarının" olduğu hamıya bəllidir. Nəzərə alaq ki, narkomaniya sadəcə Azərbaycanın problemi deyil, qlobal bəladır. Dünyanın bir çox ölkəsində televiziyalar narkomaniya ilə bağlı maarifləndirici, bilgiləndirici verilişlər, reportajlar, araşdırmalar təqdim edirlər. Bizim kanallar zəhmət çəkib xarici efirləri izləsinlər. Öyrənsinlər ki, onlar narkomaniya haqqında süjetləri necə hazırlayırlar, daha çox hansı məqamları qabardırlar, nə cür mesajlar verirlər. Özləri də təşəbbüs göstərsinlər. Bir narkomanın, bəladan xilas olmuş şəxsin timsalında cəmiyyətə kifayət qədər mesaj ötürmək mümkündür. Şərt deyil ki, həmin şəxsin üzü efirdə göstərilsin. Hətta texniki vasitələrlə səsini də dəyişmək olar. Çox gözəl tok-şoular hazırlamaq imkanları var. İlk növbədə araşdırmaq lazımdır ki, narkomaniya əsasən hansı bölgələrdə və hansı yaş qrupları arasında geniş yayılıb. Gənclərimiz boş vaxtlarını necə keçirirlər, daha çox nəyə meyl edirlər, əyləncələri nələrdən ibarətdir, çevrələrini necə seçirlər? Hamısını ayrı-ayrılıqda analiz etmək lazımdır. Məsələn, ümumi araşdırmalar göstərir ki, cənub rayonlarımızda və ikinci böyük şəhərimiz Gəncədə narkomaniya geniş yayılıb. Bunun səbəblərini üzə çıxarmaq lazımdır. Tutaq ki, cənub rayonlarımızı narkotik ticarətin geniş vüsət aldığı İranla yaxın olması ilə əlaqələndirdik. Bəs, Gəncədə hansı səbəblərdən geniş vüsət alıb? Suallar çoxdur. Ancaq televiziyalarımız bu suallara cavab axtarmaq arzusunda deyil. İşləri-gücləri yararsız xəbərləri heç bir müdaxilə etmədən cəmiyyətə ötürməkdir".

"Öyrənsinlər ki, onlar narkomaniya haqqında süjetləri necə hazırlayırlar, daha çox hansı məqamları qabardırlar, nə cür mesajlar verirlər"

**İsmayıl Qocayev**

"Rusiya bilir ki, əvvəl-axır hərbi kontingentini ərazidən çıxaracaq, ona görə də, öz izlərini kilsələrdə və ya başqa tikililərdə qoyur"



# Kreml "B" planı hazırlayır

## Rusiya üçün keçmişdən gələn "yarat və idarə et" prinsipi hələ də arxa planda deyil

**"Rusiyanın bölgədəki münaqişələri və ya mübahisəli məsələləri tənzimləməsi üçün tətbiq etdiyi metodların "şifrələri" siyasi rəhbərliklərin də, ekspert çevrələrinin də ortaq mövqeyində görünə bilər.**

**Təbii ki, siyasi rəhbərlik deyə bilmədiklərini media vasitəsilə tirajlayır və ekspertlər də buna uyğun olaraq siyasi gedişatları "oxuyurlar"".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov bildirib. O qeyd edib ki,

Moskvadakı "soyuq başlar" SSRİnin süqutuna gətirən yolda gələcək üçün böyük strateji "bombalar" hazırladılar, söhbət münaqişə ocaqlarının yaradılmasından və Rusiyaya bundan təzyiq yaratmaq üçün istifadə etmək fürsətlərinin təqdim edilməsindən gedir:

*"Yalnız Qarabağ münaqişəsi post-sovet məkanı üçün presedent oldu, münaqişənin həll edilməsi əslində qlobal lövhədə qaçılmaz zərurət halını almışdı, bu barədə bir neçə dəfə yazımız olub.*

Yeni dünya nizamının formalaşması Rusiyanı da mübahisəli məsələlərə münasibətdə redaktələrə təşviq edir.

Biz bunun ştrixlərini Qarabağ müharibəsindən sonrakı periodda görürük. Nəyə vurğu edirik?

İkinci Qarabağ Müharibəsindən sonra Türkiyə regiona daxil oldu, bu, Moskva ilə Ankaranı qarşılıqlı şəkildə münasibətlərini yeni formata salmağı aktuallaşdırır".

**Ekspert hesab edir ki, Rusiya üçün keçmişdən gələn "yarat və idarə et" prinsipi hələ də arxa planda deyil, amma bu metod indi fərqli şəkildə təzahür edir:**

"Azərbaycan ərazilərində müvəqqəti (rəsmi belə deyilir) yerləşdirilmi. Rusiya sülhməramlı kontingentinin bəzi narazılıq yaradan hərəkətlərində Kremlin "addım səsləri"ni eşitmək olur.

Rusiya sülhməramlılarının 10 noyabr bəyanatında təsbit edilən funksiya və mandatdan kənara çıxmalara yol verməsi zamanla Bakının da narazılığına səbəb olub, amma son rəsmi mövqelərdən aydın olur ki, etirazlar fayda verib, ona görə də, Bakının narazılığı hazırda razılıqla əvəzlənib.

Ancaq Rusiya sülhməramlılar vasitəsilə yeni özəklər yaradır, bu özəklər Kremlin "B" planıdır.

Bunun kodlarını açmağa çalışsaq, belə fikir yürütmək olar ki, Rusiyanın sülhməramlıları yerləşdirdiyi ərazilərdə həyata keçirdiyi bəzi tikinti işləri ermənilərin yox, məhz birbaşa Kremlin öz maraqlarına xidmət edir.

Rusiya bilir ki, əvvəl-axır hərbi kontingentini ərazidən çıxaracaq, ona görə də, öz izlərini kilsələrdə və ya başqa tikililərdə qoyur və gələcəkdə bu izin ardınca düşəcək.

Məqsədə gəlincə, düşünmək üçün əsaslar var ki, Rusiya "B" planı kimi bu ərazilərə gələcəkdə rus əhalinin köçürülməsini və ya rus iş adamlarının gəlişini təmin etmək istəyir.

Çünki Rusiya bu ərazilərdən əlini tam çəkəsi deyil, bu, real görünmür, ona görə də rıçaqları başqa formada saxlamaq niyyətlərini kilsə tikintisi ilə dilə gətirir".

**Analitik onu da əlavə edib ki, Kəlbəcərdəki Zod qızıl yatağının istismarı ilə bağlı hələ də qeyri-müəyyən təsəvvürlər mövcuddur, Rusiya isə iqtisadi maraqlarını burada da müəyyənləşdirmək yolunda baş sındırır:**

"Niyə? Rusiyanın sanksiyalara qarşı immunitetlərindən biri də qızıl ehtiyatlarıdır, Moskva qızıla alternativ valyuta kimi böyük dəyər verir.

İndi sual olunur: İqtisadi tablosunda qızılın ağırlıq təşkil etdiyi Rusiya Zod qızıl yatağından əlini üzə bilərmi? Real görünmür, ən azından indiki şərtlər altında.

Fikirlərimizdən gələ biləcəyimiz nəticə budur ki. Rusiya sülhməramlıları ərazilərdən çıxsa belə, Moskva başqa "ordu" ilə maraqlarını təmin edəcək.

Rusiya bu planlarla maraqlarının gələcək qorunması üçün "qızıl orta" yaradır...".

**Günəş Mərd**

# Ankara Ukrayna-Rusiya gərginliyini azaldacaq

Kiyev üçün də irəliləyişin yeganə yolu Türkiyə-Rusiya masası görünür

**"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna-Rusiya münaqişəsində vasitəçi olmaq istəyir və bunu Putinlə müzakirə etdiyini bildirir".**

**Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib.** Analitik bildirib ki, Ankaranın hədəfi Ukraynanı Türk Dövlətləri Təşkilatına gətirmək, Şərqi Avropadan Mərkəzi Asiyaya qədər uzanan coğrafiyada güclənmək və bu prosesdə Moskva ilə üz-üzə gəlməməkdir: "Ukrayna üçün də münaqişənin həllində irəliləyişin yeganə yolu Türkiyə-Rusiya masası görünür. Qərbin prosesdə iştirakı indiyə qədər heç



bir nəticə verməyib, əksinə, Rusiyanın aqressiyasının artması ilə nəticələnir. Rusiya güc balansını bölüşdürəcəyi tərəfin Qərb yox, Türkiyə olmasında maraqlıdır. Cənubi Qafqaz və Mərkəzi Asiyada olduğu kimi, Şərqi Avropada da Ankara-Moskva tandemi effektli ola bilər. Kiyevin son dövrlər Türkiyə ilə yaxınlaşmaq siyasətində münaqişəni bu formatda həll edə bilmək gözləntisi var. Qarabağ məsələsi göstərdi ki, post-sovet məkanındakı münaqişələrin həllində irəliləyişə nail olmaq üçün Qərb-Rusiya qarşıdurmasından yox, Türkiyə-Rusiya əməkdaşlığından yararlanmaq olar. Əks təqdirdə, Rusiyanın dağılmasını, yaxud Kremlə "demokratın" gəlişini gözləmək uzun zaman alacaq".

**İsmayıl**

# Saakaşvilinin mübarizəsi çətin olacaq

Bundan sonra vətəndaşların siyasi aktivliyi, küçə yürüşlərindəki iştirakı real görünmür



*"Qərb onu ciddi şəkildə müdafiə etsə, yəqin ki, Saakaşvilini müəyyən şərt qarşılığında buraxa bilərlər"*

**Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili nə Gürcüstanın ədliyyə sistemini, nə də ona qarşı irəli sürülən ittihamları qəbul edir. M.Saakaşvili həbs olunduqdan sonra ilk dəfədir ki, məhkəməyə qatılıb. Proses şəhər məhkəməsi binası yaxınlığında səs-küylü etiraz aksiyası fonunda baş verib. Məhkəmədə media nümayəndələrindən yalnız Gürcüstanın Birinci Kanalının jurnalistləri və operatorları iştirak edib. Televiziya şirkəti vaxtaşırı məhkəmədən xəbərlər tirajlayıb.**

Hakimlər M.Saakaşvilinin səhhətini nəzərə alaraq, ona su içməyə icazə veriblər. Siyasətçi cavab verib ki, onlara təşəkkür edir və yaxşılığı dəyərləndirir.

Məhkəmə başlamazdan öncə zalda Gürcüstanın himninin səsləndirilməsi hakimlərin narazılığına səbəb olub.

M.Saakaşvili "Himnə qadağa? Mənim yaratdığım Gürcüstanın himni altında mən mübahisə etmək istəmirəm", - deyə bildirib.

Vəkillər tələb ediblər ki, iclas telekanallar vasitəsilə canlı yayımlansın.

Eyni zamanda onlar prosesi "Facebook"da canlı yayımlayıblar, ancaq hakim onlardan yayımı dayandırmağı tələb edib.

Qeyd edək ki, M.Saakaşvili oktyabrın 1-də Gürcüstanda saxlanılıb. Həmin vaxtdan o, aclıq aksiyasına başlayıb. Bundan əvvəl Gürcüstanda M.Saakaşvili bankir Sandro Qirqvlianinin qətli və deputat Valeri Gelaşvilinin döyülməsi işləri ilə bağlı qiyabi mühakimə olunub. Birinci məsələdə o, üç il, ikincidə isə altı il müddətinə azadlıqdan məhrum edilib. Bundan başqa, eks-prezident noyabrın 7-si 2007-ci ildə müxalifətin mitinqinin dağıdılması, "İmedi" telekanalının talan edilməsi və dövlət büdcəsindən ayrılan vəsaitlərin mənimsənilməsində ittiham olunub. Bu işlər üzrə məhkəmələr hələ davam edir.

Gürcüstan hakimiyyəti M.Saakaşvilini azadlığa buraxmaqdan imtina edir.

M.Saakaşvili Tbilisi Şəhər Məhkəməsindəki çıxışında gürcü xalqına müraciət edib. Sabiq dövlət başçısı gürcülərə vətənlərinə görə qürur hissi keçirib-keçirmədikləri, inkişaf sürəti üçün darıxıb-darıxmadıqları ilə bağlı sual ünvanlayıb. Bundan başqa M.Saakaşvili həbsdən öncə Gürcüstanda bir neçə nəfərlə ünsiyyətdə olub və insanların çox bədbəxt olduğunu gördüyünü qeyd edib.

O, həmçinin bildirib ki, bu gün ölkədə baş verənlərə xalqın birliyi ilə son qoyulmalıdır.

**Eks-prezidentin gələcək siyasi taleyini "Şərq"ə şərh edən analitik Turab Rzayevin qənaətincə, Saakaşvili bundan sonra da mübarizəsini davam etdirəcək:**

"Əlbəttə ki, eks-prezidentin mübarizəsi artıq daha çətin olacaq. Çünki seçkilər bitib. Bundan sonra vətəndaşların siyasi aktivliyi, küçə yürüşlərindəki iştirakı bir az çətin görünür. Yəqin ki, Saakaşvili böyük ehtimal Qərbin, Avropa İttifaqının (Aİ) və Amerika Birləşmiş Ştatlarının (ABŞ) dəstəyinə ümid edir. Əgər Gürcüstan hökuməti üzərində böyük bir təzyiq yaradıla bilsə, böyük ehtimalla Saakaşvilini həbsdən azad edəcəklər. Təzyiqlər dedikdə Gürcüstan hökumətinin hər hansı maddi yardımlardan məhrum olacağı, müxtəlif sanksiyalarla qarşılaşacağı nəzərdə tutulur. Yox əgər hakimiyyət görsə ki, Saakaşvilinin həbsdə olması problem yaratmır, onu mümkün qədər daha çox "içəridə" saxlayacaqlar. İstənilən halda Saakaşvilinin həbsdən çıxması ölkədə əmin-amanlığı poza, ictimai asayişdə dalğalanmaya səbəb ola bilər".

**T.Rzayev həmçinin əlavə edib ki, hökumət təbii olaraq seçkini keçirib, hakimiyyətini "möhkəmlətmək" istəyir:**

"Hökumət istəmir ki, ölkə daxilində yenidən küçə iğtişaşları, mitinqlər, böyük etiraz aksiyaları keçirilsin. Ona görə də hakimiyyət mümkün qədər Saakaşvilini uzun müddət həbsdə saxlamağa çalışır. Amma keçmiş prezident tərəfdarlarını küçə mitinqləri və yürüşlərə çağırır. Burada yəqin ki, böyük həlledici rolu Qərbin Gürcüstan hökumətinə qarşı münasibəti, sanksiyalar və s. oynayacaq. Qərb ciddi şəkildə Saakaşvilini müdafiə etsə, yəqin ki, onu müəyyən şərt qarşılığında buraxa bilərlər. Bu, ölkəni tərk etmək, hansısa yolla Qərbin müxalifətin hakimiyyət qələbəsini tanıması şərti də ola bilər".

**Sücayət Mehti**



**"NATO Rusiya ilə dialoqun mümkünlüyünə inanır, lakin eyni zamanda rəsmi Moskvaya qarşı məhdudlaşdırma siyasətini müdafiə edir". Bunu NATO-nun baş katibi Yens Stoltenberq Latviyanın Adazi hərbi bazasına səfəri zamanı deyib.**

Baş katib bildirib ki, hərbi alyans münaqişə tərəfdarı deyil. Təşkilatın məqsədi Rusiyanın hər hansı təcavüzünün qarşısını almaqdır. Xatırladaq ki, bundan əvvəl Rusiya Dövlət Dumasının Müdafiə Komitəsinin rəhbəri Andrey Kartapolov Moskvanın NATO ilə konstruktiv və bərabərhüquqlu dialoqa hazır olduğunu söyləyib. Lakin bir neçə gün sonra Rusiya Xarici İşlər Nazirliyi Qərbi yenidən ittiham edib. Nazirlikdən bildirilib ki, NATO məqsədli şəkildə Rusiyanın gücünü sınayır: "Hərbi alyans gəmilərini və təyyarələrini sərhədlərimiz yaxınlığına göndərərək bizim gücümüzü sınayır, Rusiyanı reaksiya verməyə məcbur edir. Bununla belə, bizim cavab tədbirlərimiz adekvat, mütənasib və təmkinlidir". Məlumat üçün bildirək ki, Ukrayna və Polşa məsələsinə görə son günlər ABŞ-Rusiya arasında növbəti gərginlik yaşanmaqdadır.

# NATO-Rusiya gərginliyi davam edir

İlqar Vəlizadə: "Nə öz iddialarından vaz keçirlər, nə də müharibə istəyirlər"

*"Dialoq ona görə qaçılmazdır ki, tərəflər arasında müharibə başlamasın"*

**Tərəflərin qarşıdurmasını "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadənin fikrincə, NATO-Rusiya gərginliyi ilə bağlı birmənalı fikir söyləmək çətindir. Ekspertin sözlərinə görə, hər iki tərəfin açıqlamalarında, sərgilədikləri yanaşmada paradoks var:** "Bir tərəfdən ABŞ və Rusiya dialoqa maraq göstərir. Səbəbi odur ki, uzun müddət dialoqsuz mühitin davam etməsi son nəticədə ciddi qarşıdurmaya, hərbi toqquşmalara gətirib çıxara bilər. Nə Qərb, nə də Rusiya müharibənin başlanmasında maraqlıdır. Çünki hər iki tərəf savaşın fəsadlarından, itkilərdən ehtiyat edirlər. Amma məsələ ondadır ki, NATO və Rusiya müxtəlif bölgələrlə bağlı ambisiyalarından, planlarından da vaz keçmir, əl çəkmirlər. NATO-nun müdafiə proqramlarına hər il külli miqdarda vəsait sərf olunur. Hərbi alyans Baltikyanı ölkələrdə müdafiə sistemlərini gücləndirir, Qara dəniz hövzəsində mövqelərini möhkəmləndirir, mühafizə sistemi yenidən qurulur. Rusiya da öz növbəsində Qara dənizdə hərbi-siyasi üstünlüyünü qoruyub saxlamaq üçün əlindən gələni edir. Donbasda, Abxaziya və Cənubi Osetiyada separatçıları dəstəkləyir. Yəni nə öz iddialarından vaz keçirlər, nə də müharibə istəyirlər. Dialoq ona görə qaçılmazdır ki, tərəflər arasında müharibə başlamasın. Amma hər iki tərəf öz məqsədlərində qalmağa davam edəcək".

**İsmayıl Qocayev**

## Putin ilk dəfə açıqladı

Rusiya NATO təlimlərindən narahatdır



**NATO-nun Rusiya sərhədlərinə niyə yaxınlaşmasına dair suala məntiqli cavab yoxdur. Sputnik Azərbaycan xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin "Rusiya çağırır!" investisiya forumunda çıxışı zamanı bildirib.**

"Rusiya və Qərb cəmiyyəti arasında münasibətlər 1990-cı illərdə, 2000-ci illərin əvvəllərində "buludsuz" idi. NATO-nu bizim sərhədlərimizə doğru genişləndirmək nəyə gərək idi? Nə üçün? Bu suala kim cavab verə bilər? Bu suala məntiqli cavab yoxdur", - deyə Rusiya prezidenti qeyd edib.

O, həmçinin qeyd edib ki, Rusiya sərhədləri yaxınlığında hərbi təlimlərin, o cümlədən planlaşdırılmamış təlimlərin keçirilməsindən narahatdır: "Rusiya Federasiyası da son vaxtlar Qara dənizdə olduğu kimi, onun sərhədləri yaxınlığında irimiqyaslı təlimlərin, o cümlədən planlaşdırılmamış təlimlərin keçirilməsi ilə bağlı müəyyən narahatlıqlar yaşayır".

# Seçki şəffaf olacaq

8 fakültə dekanı və 29 kafedra müdiri vəzifəsi boşdur

**Təhsil Nazirliyi Bakı Dövlət Universitetində dekan və kafedra müdiri vəzifəsinə qəbul üçün müsabiqə elan edib. Təhsil Nazirliyinin məlumatında qeyd olunur ki, ali məktəbdə 8 fakültə dekanı və 29 kafedra müdiri vəzifəsi boşdur. Müsabiqədə iştirak etmək üçün sənədlər 1 ay müddətində qəbul ediləcək.**

Rəhbər vəzifələrin boş qaldığı fakültə və kafedralar arasında Mexanika-riyaziyyat, Fizika, Geologiya, Tarix, Filologiya, Sosial elmlər və psixologiya, Kitabxanaçılıq-informasiya, Biologiya fakültəsi, Nəzəri-fizika, Ümumi fizika və fizikanın tədrisi metodikası, Astrofizika, Fiziki elektronika, Yarımkeçiricilər fizikası, Ümumi və tarixi geologiya, Seysmologiya və Yer təkinin fizikası, Botanika və bitki fiziologiyası, Molekulyar biologiya və biotexnologiyalar, Rus dili kafedrası (humanitar fakültələr üzrə), Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası və sair, ümumilikdə 29 kafedraları var.

**Müsabiqə ilə bağlı "Şərq"ə məlumat verən Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru Kamran Əsədov qeyd etdi ki, dekan və kafedra müdiri vəzifələrinə hər 5 ildən bir seçki keçirilir:**

- Bu, uzun illərdir ki, belədir. Fakültə dekanı və kafedra müdiri vəzifələri seçkilidir. Bu vəzifələrə hər 5 ildən bir müsabiqə elan olunur. Ali məktəblərin rektorları ölkə Prezidentinin sərəncamı ilə təyin olunur. Amma o da 5 illik. Yəni istər rektor, istərsə də fakültə dekanı, kafedra müdiri vəzifələri müddətlidir. Sadəcə, fərq bundadır ki, rektor Prezident tərəfindən təyin edilir, dekanlar, kafedra müdirləri isə seçilir. Əvvəllər də bu belə olub, amma proses qapalı aparıldığı üçün ictimaiyyət bundan xəbər tutmurdu. Daxildə, öz aralarında qapalı seçki aparıb, dekan, kafedra müdiri "seçirdilər". 5 illik müddət bitdikdən sonra açıq şəkildə müsabiqənin elan edilməsi prosesin daha şəffaf aparılmasına kömək edir.



*"BDU-nun dekan vəzifələrinə başqa ali məktəblərin müəllimləri də namizədliklərini irəli sürə bilər"*

**K.Əsədov bildirdi ki, BDU-nun 17 fakültəsindən 13-də dekanların 5 illik müddəti artıq başa çatıb. 8 fakültə üzrə seçkilər indi keçiriləcək, 5-də isə bir qədər sonra:**

- Müsabiqədə hər kəs iştirak edə bilər. Şəxs özü namizədliyini irəli sürür. "Hər kəs" deyərkən, müsabiqəyə yalnız BDU-nun müəllimlərinin qatıla biləcəyi şərtinin olmadığını bildirmək istəyirəm. Başqa ali məktəblərin pedaqoqi heyətinə daxil olanlar namizədliklərini irəli sürə bilər. Təbii ki, bir sıra şərtlər var. Məsələn, namizədin elmi dərəcəsinin, 5 illik pedaqoji iş təcrübəsinə malik olması, dərc olunmuş elmi məqalələri və sair. Həmçinin, namizəd platformasını da təqdim etməlidir. Nə edəcək, idarəetmədə hansı yenilikləri həyata keçirməyi düşünür və sair.

K.Əsədov onu da qeyd etdi ki, baxmayaraq müsabiqə ümumi şəkildə, hər kəs üçün elan edilir, çox zaman fakültə dekanı, eləcə də kafedra müdirləri vəzifələrinə 5 illik müddəti bitmiş dekan və kafedra müdirləri yenidən təsdiqlənir:

- Hətta bəzən iki 5 illik müddətdən sonra yenə dekan və kafedra müdirləri olanlar da var.

**Məlahət Rzayeva**

*"Mən hələ də Azərbaycanın bank sektorunda vəziyyətin normal olduğu qənaətində deyiləm"*

# Öyrəşmişik...

"Kompüter, sistem işləmir" tipli cümlələr qurmaq Azərbaycanda adi hala çevrilib

**Şair, publisist Aysel Əlizadə öz feysbuk hesabında paylaşım edib. A.Əlizadə yazıb: "İnsanlarımızı o qədər aldadıblar ki, millət banklara inanmır. "Azər Türk Bank"ı bank bilib, illərdir müştərisi olmuşam. Müştəri az idi, adam balası kimi iş görürdülər. İnsanlar mənim kimi avamlara inanıb, gəldi bu banka, vəssalam.**

Müştəri artıb. Üstəlik qanunları bilməyən qohum-əqrəba, dost-tanışlarını işə doldurublar, altını biz çəkirik. Guya dövlət bankıdır, məni üç saat əsəb, isterika həddinə çatdırıblar. O deyir, bu şöbəyə gedin, bu deyir, ora gedin. Adamı incidirlər. Elementar qanunları bilmirlər, düz üç saatdır vaxtımı alıblar. Adi əməliyyatı edib, bitirmirlər. Axırda da qayıdasan ki, xanım, gecdi, kassa bağlanır. Yəqin ki, nə hala düşdüyümü təsəvvür edərsiniz. Qanunu göstərib, dava salıb, kassanı açdırmışam. Niyə biz insan kimi mədəni ölkəmizin bankına güvənə bilmirik? Hesabımı da bağlayıram, bu bank mənim üçün bitdi".

Həqiqətən də insanların banklarda problemlərlə qarşılaşdıqlarının şahidi oluruq. Məsələlərdə nöqsanları dilə gətirirlər. Bəzən işçilərin laqeydlikləri, bəzən də sistemdə yaranan problemlərlə bağlı narazı olurlar. Həmçinin Mərkəzi Bank uçot dərəcəsini artırıb. Bu da nəticədə verilən kredit faizinin yüksəldilməsi deməkdir.

**Vətəndaşların narazılıqları barədə fikirlərini "Şərq"ə bölüşən iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, informasiya təhlükəsizliyi, kibercinayətkarlıqla bağlı Azərbaycandakı durum çox da ürəkaçan deyil:**

"Kompüter, sistem işləmir" tipli cümlələr qurmaq Azərbaycanda adi hala çevrilib. Bu da insanları aldatmaq yoludur. Təbii ki, banklar öz təhlükəsizliyini qorumaqla yanaşı, ödəniş sistemlərinin unifikasiyasını həyata keçirməlidir. Təəssüf ki, uzun müddət Azərbaycan Mərkəzi Bank (AMB) və Beynəlxalq Bank (ABB) arasında "görünməyən münaqişələr", "nüfuz savaşı" olurdu. O zamanlar kiçik bankların ödəniş sistemləri fərqli idi. Bu həm də sistemin uyğunlaşmaması anlamına gəlirdi. Bankdan-banka köçürmələr zamanı böyük faiz dərəcələrinin tutulması və bu xidmət haqqının yüksəkliyi insanlarda narahatlıq yaradır".



İqtisadçı bunu da əlavə edib ki, banklar əsasən Azərbaycanda müxtəlif holdinqlərə, oliqarx qruplara məxsusdur:

"Ona görə də əsasən kassa funksiyalarını yerinə yetirirlər. Nağdsız hesablaşmalar çox az həyata keçirilir. Nağdsız hesablaşmaların stimullaşdırılması haqqında ölkə başçısının təqribən 10 il əvvələ aid fərmanı var idi. Buna baxmayaraq daha çox nağd pul kütləsinin işləməsi, çoxalması Mərkəzi Bank tərəfindən stimullaşdırılırdı. Ancaq son illərdə Vergi Xidməti tərəfindən nağdsız hesablaşmaların stimullaşdırılması addımları atıb. Bu da müsbət mənada İqtisadiyyat Nazirliyinin iqtisadiyyatı şəffaflaşdırmaq, azaltmaq haqqında müxtəlif tədbirləri hesab edilə bilər. Ona görə də sistemlər yüklənir. Amma bir banka məxsus olan bankomatdan başqa bir bankın kartı ilə vəsait köçürdükdə, pul çəkdikdə bir neçə faiz tutulması anormallıqdır. Bunları aradan qaldırmaq lazımdır. Mən hələ də Azərbaycanın bank sektorunda vəziyyətin normal olduğu qənaətində deyiləm".

**N.Bəydəmirli həmçinin əlavə edib ki, mərkəzi bankın uçot dərəcəsinin artırılması istər-istəməz kredit resurslarını bahalaşdırır:**

"Bahalaşma da öz növbəsində iqtisadi fəaliyyətə mənfi təsir göstərir. Vətəndaşların real gəlirlərinin azalmasına, inflyasiyanın artmasına səbəb olub. Adətən uçot dərəcəsinin artırılmasını Mərkəzi Bank daha çox inflyasiyanın önləyici tədbiri kimi qiymətləndirir. Azərbaycanda bank kapitalının ümumdaxili məhsulunun istehsalında faiz dərəcəsi aşağıdır. Buna görə də bank sektoru daha çox nağdlaşdırma və digər funksiyalarla məşğul olur. Daha çox kassa funksiyasını yerinə yetirir. Bu səbəbdən geniş bank sektorunun ümumdaxili məhsulda iştirakı azdır. Əsas təkanverici qüvvə dövlət investisiyaları və s.dir. Banklar məmur kapitalına aid olduğuna görə böyük kütləni əhatə edə bilmir. Nəticə etibarilə kredit resursları uçot dərəcəsinə uyğun olaraq bahalaşırsa, bu da sadə vətəndaşın mənfəətinə mənfi təsir göstərir".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

# İnformasiya təhlükəsizliyi sabitliyin qarantıdır

## Bu istiqamətdə kadrların hazırlanması və beynəlxalq təcrübənin öyrənilməsi üçün resurslar artırılmalıdır

Aynurə Pənahqızı



**Dövlətin və millətin mövcudluğu üçün zəruri olan təhlükəsizlik və milli maraqlar bir-birini tamamlayan əsas faktorlardır. Belə ki, təhlükəsizlik mühiti olmadan milli maraqlar, milli maraqlar təmin edilmədən isə təhlükəsizlik şəraiti yaradıla bilməz. Təhlükəsizlik, bu baxımdan informasiya təhlükəsizliyi ölkənin, millətin, xalqın və nəhayət, hər bir vətəndaşın riayət etməli olduğu yaşam tərzi kimi sabitliyin qarantıdır. Bu gün cəmiyyət informasiyalaşdıqca, insanlar informasiyadan daha artıq dərəcədə asılı vəziyyətə düşürlər.**

İnformasiya təhlükəsizliyinin təmin olunmaması isə cəmiyyət üçün böyük fəsadlar törədə bilər. Hər hansı ölkədə informasiya təhlükəsizliyinin prioritetləri dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarının balanslı nisbəti əsasında müəyyənləşir. Ölkədəki siyasi, hərbi, fövqəladə və s. vəziyyətlərdən asılı olaraq bu nisbət dəyişə bilər. İnformasiya təhlükəsizliyinin təmin edilməsi sistematik, kompleks yanaşma tələb edir. Bu gün İnformasiya təhlükəsizliyimiz hansı vəziyyətdədir?

**Sualımıza aydınlıq gətirən Azərbaycan İnternet Forumunun prezidenti, "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz "Şərq"ə açıqlamasında vurğulayıb ki, son illər Azərbaycanda bu istiqamətdə müəyyən addımlar atılıb. O qeyd edib ki, Prezidentin fərmanı ilə üç il öncə informasiya təhlükəsizliyinə cavabdeh qurumların Koordinasiya Komissiyası formalaşıb:** "Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəhbəri, general Mürsəl Vəliyev Komissiyanın rəhbəri təyin edilib. Son zamanlar bu Komissiyanın təhlükəsizlik problemləri ətrafında bir neçə əhəmiyyətli müzakirələri də keçirilib. Müharibə zamanı informasiya təhlükəsizliyi ilə bağlı müəyyən problemlər olsa da, DTX və XRİT Dövlət Xidmətinin apardığı işlər təqdirəlayiq olub. Qeyd edim ki, son illərdə dövlət və qeyri-dövlət sektorunda informasiya təhlükəsizliyinə cavabdeh qurumlarda struktur dəyişiklikləri aparılıb. Həmçinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) yanında Elektron Təhlükəsizlik Xidmətinə yeni rəhbər təyin edilib. Prezident "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Fərman imzalayıb ki, bununla da auditi məcburi olan qurumlar müəyyən olunacaq".

*O.Gündüz qeyd edib ki, görülən işlərlə yanaşı bir sıra problemlər də qalmaqdadır:* "Düşünürəm ki, ölkəmizdə informasiya təhlükəsizliyi sahəsində uzun müddətdən bəri həllini gözləyən problemlər də yetərincədir. Birincisi, Prezidentin fərmanı ilə üç il bundan öncə Koordinasiya Komissiyasının hazırlanmalı olduğu "İnformasiya təhlükəsizliyi və Kibertəhlükəsizlik üzrə Milli Strategiya" hələ də ortada yoxdur. İkincisi, dövlət sektorunda təhlükəsizliyə cavabdeh olan Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin az qala iki il olar ki, Əsasnaməsi təsdiqlənməyib. Üçüncüsü, dövlət qurumlarında "Kaspersky Lab", "TrendMicro" və ya digər bir xarici qurumun təhlükəsizlik həllərinin tətbiqi məsələlərinə aydınlıq gətirilməyindən hansı dövlət qurumu hansını istəyirsə, onu da tətbiq edir. Bundan başqa kritik informasiya infrastrukturuna hansı dövlət qurumlarının informasiya resurslarının daxil ediləcəyi hələlik müəyyənləşməyib. Müxtəlif kiberhücumlarla (SMS, email, zənglər və s. vasitəsilə) fərdi məlumatların, sosial media hesabların oğurlanması (Bank kartları məlumatları və s.), hallarının çoxalması bir daha onu göstərdi ki, kibertəhlükəsizliklə bağlı qurumlar arası koordinasiyada və vətəndaşların rəqəmsal savadlılığının artırılmasında problemlər qalır".

**Ekspert xüsusən qeyri-dövlət sektorunda kibertəhlükəsizliklə bağlı problemlərin həllinə diqqət artırılmasının vacib olduğunu qeyd edib:** "Kibercinayətlərlə bağlı DİN və DTX arasında səlahiyyət bölgüsü hələ də konkretləşməyib. DİN nəzdində Kibercinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi yaradılmayıb. Fərdi məlumatların qorunması haqqında qanunvericilik Avropa standartlarına uyğunlaşdırılmayıb. Hesab edirəm ki, informasiya təhlükəsizliyi sahəsində kadrların hazırlanması və beynəlxalq təcrübənin öyrənilməsi üçün resurslar artırılmalıdır. Yeri gəlmişkən, uzun müddət davam edən icitmai mübarizədən sonra "İnformasiya təhlükəsizliyi" ixtisasını seçənlərdən Kimya əvəzinə İnformatikadan imtahan götürüləcəyi ilə bağlı DİM-in yeni qərarını da sektorda uğur kimi nəzərə almaq olar".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bizi birləşdirən dəyər: ilk dərs günü, ilk Zəfər Günü

**Akif Rüstəmov**

**"İlk"lərin hər ikisi mənim üçün doğma və əzizdir. Ömrümün əlli ildən çoxunu ilk dərsə başlayan, təhsilimizin və elmimizin flaqmanı Bakı Dövlət Universitetində keçirmişəm. İkincisi, bir qarabağlı kimi ilk Zəfər Gününün sevincini yaşayıram.**

***

"Yenə təkrar edirəm: məktəb, məktəb. Bizi ancaq məktəb nadanlıqdan xilas edər" (Nəriman Nərimanov). Dahilər deyir ki, insanın ən böyük sərvəti onun pulu deyil, elmidir.

Bəli, əgər belə demək mümkünsə, elm işıqdır, gələcəyə nur saçan işıqdır, elmsizlik isə qaranlıqdır, insanı məhv edən qaranlıq.

Şərqin ilk dünyəvi təhsil ocaqlarından olan Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. İyirmi üç ay fəaliyyət göstərən Xalq Cümhuriyyəti elmin, təhsilin və xalq maarifinin inkişafını diqqət mərkəzində saxlayırdı.

Yeni hökumət Bakıda darülfünun təsis etməyi planlaşdırır. Bu münasibətlə komissiya da yaranır. Bəzi deputatlar mətbuat səhifələrində çıxış edərək əvvəlcə gimnaziya tipli orta məktəb şəbəkəsini yaratmağı məsləhət görürdülər. Onlar milli professorların olmadığını əsas gətirərək belə deyirdilər.

Məsləhət görürdülər ki, milli professorlar hazırlayandan sonra darülfünun təsis etmək olar. Bəziləri isə dərslərin rus dilində keçirilməsinə qarşı çıxaraq rus professorlarının "ruslaşdırma" siyasəti aparacağını bildirirdilər. Parlament üzvlərinin əksəriyyəti bu əsassız fikrə qarşı çıxaraq göstərdilər ki, elm həmişə beynəlmiləl olmuş, Azərbaycan ziyalılarının çoxu Rusiyada təhsil almış, heç də"ruslaşmamışdır". Onu da bildirim ki, ictimai-siyasi xadim, publisist, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü Mehdi bəy Hacınskinin parlamentdəki çıxışı daha çox yadda qaldı. O, deyirdi: "Bir vaxt qışqırıb deyirdilər, ey dadi-bidad, üsuli-cədid məktəbi açmayın, kafir olarsınız. İndi də deyirlər ki, darülfünun açmayın, ruslaşarsınız..."

Gərgin keçən müzakirələrdən sonra - 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti universitetin təsis olunması haqqında sənəd qəbul etdi. Universitetin ilk rektoru, professor Vasili İvanoviç Razumovski parlamentdə çıxış edərək demişdi: "Siz böyük və tarixi iş gördünüz... Mən çox şadam ki, darülfünunun təsisinə bütün partiyaların vicdanlı münasibət bəslədiyinin şahidi oldum".



Universitetdə 102 il əvvəl, 1919-cu il noyabrın 15-i ilk dərs günü elan edilir. Bu münasibətlə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı "Azərbaycan" qəzeti noyabrın 17-də yazırdı: "Dün Azərbaycan Darülfünunu ilk dəfə olaraq açıldı və ilk gündür ki, məşğuliyyətə başladı... Azərbaycan Darülfünunu, əlbəttə, bir türk darülfünudur, çünki türk parlamanı, türk hökuməti tərəfindən türk gəncliyi üçün açılmışdır. Darülfünunun həyata və məşğuliyyətə başlaması tarixi 15 noyabr yeni bir tərəqqi dövrünün açılmasının ibtidası olacaqdır".

Təəssüf ki, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu arzuları ürəkdə qoydu. Bakı Dövlət Universitetinin həyatında da mürəkkəb bir dövr başladı. 1926-cı ildə Azərbaycan SSR-nin rəhbər vəzifəsinə gətirilmiş erməni Levon Mirzoyan 1928-ci ildə vaxtilə özünün də ali təhsil aldığı Azərbaycan Dövlət Univetsitetinin fəaliyyətinə son qoyur, onu Müsavatı təbliğ etməkdə günahlandırır. Yalnız Mir Cəfər Bağırov hakimiyyətə gəldikdən sonra ali təhsil ocağının yenidən fəaliyyətini bərpa etmək məsələsini qaldırır və nail olur. 1934-cü ildə universitet yenidən fəaliyyətə başlayır və respublikada elmi-pedaqoji fikrin mərkəzinə çevrilir.

Dörd fakültə ilə həyata vəsiqə alan universitetdə bu gün 16 fakültə fəaliyyət göstərir. 121 kafedrada çalışan professor-müəllim heyəti gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur.

2019-cu ildə 100 illiyini qeyd edən Bakı Dövlət Universiteti Azərbaycan dövlətçiliyinin etibarlı sosial dayağı olduğunu bir daha sübut etdi. Prezident İlham Əliyev BDU-nun 100 illiyi münasibətilə keçirilən mərasimdəki çıxışında universitetin fəaliyyətinə yüksək qiymət verib: "Yüz il ərzində universitetin 200 minə yaxın məzunu müxtəlif sahələrdə öz bilik və bacarıqlarını nümayiş etdirib. Məzunlar arasında görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxıb. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini verib".

Əllidən çox tanınmış ictimai-siyasi xadim və elm adamlarının fəxri doktoru olduğu Bakı Dövlət Universiteti hazırda 60-dan çox ölkənin 200-dən cox universiteti ilə əməkdaşlıq edir. BDU dünyanın tanınmış universitetləri ilə tələbə-müəllim mübadiləsi həyata keçirir, həmçinin"ikili" diplom üzrə mütəxəssislər hazırlayır.

8 noyabr - Zəfər Günü. "Bu, Zəfər bayramı, rəşadət bayramı, ədalət bayramı, milli qürur, milli ləyaqət bayramıdır" (İlham Əliyev). Bu günü xalqımız düz otuz il gözləyib. Qəhrəman Azərbaycan əsgəri erməni işğalı altındakı torpaqlarımızı 44 günə - "dastanlara yazılacaq zəfərlə" azad etdi. Bu tarixi qələbədən sonra fəxrlə deyirik: İlin ölkəsi Azərbaycandır; ilin xalqı Azərbaycan xalqıdır; ilin qəhrəmanı Azərbaycan əsgəridir. Başımıza ucalıq gətirən Azərbaycan ordusuna eşq olsun!

Zəfər Gününü Azərbaycanın hər yerində geniş ruh yüksəkliyi ilə qeyd edirlər. Bakı Dövlət Universiteti də bu əziz günü geniş tərzdə qeyd edir. Əvvəla qeyd edim ki, noyabrın 5-də böyük akt zalında Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə BDU-nun rektoru Elçin Babayev çıxışında qeyd edib ki, "Qüdrətli dövlətimiz, müzəffər xalqımız tariximizin heç bir mərhələsində görünməyən uğura imza atdı. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, mahir sərkərdəlik bacarığı, şəhidlərimizin canı, qazilərimizin qanı, xalqımızın ölkə rəhbərinin ətrafında dəmir yumruq kimi birləşməsi sayəsində ötən ilin 27 sentyabrından zəfər salnaməmizin ən şanlı, parlaq səhifələri yazılıb".

Xalqımızın qürur mənbəyi olan universitetdə keçirilən tədbirlərin sayı o qədər çoxdur ki, mən yalnız onlardan bir neçəsi barədə məlumat verməyi lazım bildim. BDU-nun Mədəniyyət Yaradıcılıq Mərkəzi və Jurnalistika fakültəsi tədris-teleradio studiyasının hazırladığı "Zəfər yolu" verilişi sentyabrın 27-dən noyabrın 8-nə, Zəfər Gününədək 44 gün davam etdi. Hər verilişə bir qazi dəvət olunur. Qazilər müharibənin ağır nəticələrindən, insanlara vurduğu mənəvi və maddi zərbələrdən, əsgərlərin fədakarlığından, onların səbri və dözümlü olmalarından söz açır, bir sözlə, keçdikləri döyüş yoluna nəzər salırlar.

Jurnalistika fakültəsi tədris-teleradio studiyasının hazırladığı "Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə" sənədli filmi döyüş meydanında şəhidlik zirvəsinə ucalmış BDU-nun 19 məzununa həsr olunub. Filmə ilk baxışda mən də iştirak etdim. Vətən üçün, torpaq üçün, bizim üçün canlarından keçmiş şəhidlər, onların gülərüz sifətləri gözüm önünə gəldi. Və şəhidlərə həsr olunmuş, adını unutduğum müəllifin bir şeiri yadıma düşdü:

**Siz can verdiniz bizlər yaşayaq,**
**Heç haqqınızı danmaqmı olar,**
**Bu dərdi asan sanmaqmı olar,**
**Odsuz bu qədər yanmaqmı olar.**

Bəli, üç minə yaxın şəhidimizi unutmağa bizim haqqımız yoxdur. Allah "Qurani-Kərim"də buyurur: "Şəhidlərə ölü deməyin, onlar diridirlər..." "Şəhidlərdə Vətən və torpaq sevgisi ata-ana sevgisi qədər təbiidir. Allah bütün şəhidlərə rəhmət eləsin, məkanları cənnət olsun!

"Dövlətçilik və şəxsiyyət" mövzusunda Respublika elmi-praktik konfrans, "Zəfər Günü" və "Vətən bölünməz" adlı tədbirlər, Vətən müharibəsi dövründə medianın fəaliyyətinə dair kitabların təqdimatı, fakültələrdə keçirilən elmi konfrans və seminarlar, qazilərlə görüşlər universitetdə keçirilən tədbirlərin az bir siyahısıdır.

Hazırda universitetin rektoru Elçin Babayevin rəhbərliyi altında BDU-nun 2030-cu ilə qədər inkişaf konsepsiyası hazırlanır. O özü bu barədə APA-ya verdiyi müsahibədə bildirib. Rektor deyib ki, bununla bağlı İsraildən olan mütəxəssislərlə də məsləhətləşmələr aparırıq. Təhsildə yeni yanaşmalara çox maraq göstəririk. Yüksək ixtisaslı, müasir dövrün tələblərinə cavab verən gənc nəsil yetişdirməyi qarşımıza məqsəd qoymuşuq. Universitetdəki bütün prosesələr buna xidmət edir və etməlidir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli sərvəti adlandırdığı Bakı Dövlət Universiteti bir əsrlik fəaliyyəti dövründə təkcə ali təhsilimizin flaqmanı, elm mərkəzi olmayıb, həm də ölkənin ictimai-siyasi həyatında önəmli rol oynayıb, Azərbaycanın inkişafına öz töhfəsini verib.

# Azərbaycanın tərəfdaş ölkələrində milli valyuta dəyərdən düşür

## Manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının yanaşmasından asılıdır



**"Azərbaycanın əsas ticarət tərəfdaşlarında milli valyutalar son 1 ayda hiss edilən dərəcədə dollara nisbətən zəifləyib".**

*Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, həm ümumi xarici ticarətdə, həm də qeyri-neft ixracatında 2-ci ən böyük tərəfdaşımız olan qardaş Türkiyədə noyabr ayında dollara nisbətən geriləyən lirə son ayda 22 faiz dəyərsizləşib:* "Başa çatmaqda olan ay qeyri-neft ixracatımızda əsas ticarət tərəfdaşımız olan və ən çox məhsul idxal etdiyimiz Rusiya rublu üçün də əzuolunan olmayıb. Noyabra dollara nisbətən 70.8 məzənnəsi ilə başlayan rubl ayın sonuncu günü birjalara 75.0 kursu ilə çıxarılıb. Bu 1 ayda Rusiya rublunun ABŞ puluna nisbətən 6 faizə yaxın ucuzlaşması deməkdir. Azərbaycanın əsas ticarət tərəfdaşı olan Avrozonanın vahid valyutası da ABŞ dolları noyabr rəqabətində uduzub. Noyabr ayına dollara nisbətən 1.16 kursu ilə başlayan avro daha sonra 1.13 bəndinə qədər dəyər itirib. Bu da avro üçün 3 faizlik ucuzlaşması deməkdir. Bütövlükdə, milli valyutamızın kursuna təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir. Valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Bu baxımdan Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələrinin dəyişməsi ən azı psixoloji faktorlardan hesab olunur".

**V.Bayramov vurğulayıb ki, Azərbaycanda hələ ki, üzən məzənnə rejiminə keçilməyib:** "Praktiki olaraq, manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının yanaşmasından asılıdır. Nəticə etibarilə, Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də növbəti dövrlərdə manatın məzənnəsinin necə dəyişməsi birbaşa məhz Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

**İsmayıl**

# "Google" Lütfi Zadəyə "dudl" həsr etdi

## "Bu, çox qürurvericidir, dünya alimimizi bir daha tanıyacaq"




**Məşhur "Google" axtarış sisteminin əsas səhifəsi dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadəyə həsr edilib. Axtarış sistemi alimə həsr olunmuş "dudl" təqdim edib. Sistemin istifadəçiləri "dudl"u klik etməklə Lütfi Zadə barəsində məlumatlar olan saytlara, səhifələrə keçid edə bilərlər. Qeyd edək ki, bu gün internet mühitində minlərlə axtarış sistemi fəaliyyət göstərsə də, istifadəçilərin çox hissəsi "Google"a üstünlük verirlər. İnternet istifadəçilərindən hər 10 nəfərdən 6-sı "Google" serverinə müraciət edir.**

"Google"nin "dudl"ları dünyada baş verən maraqlı hadisələr, ənənəvi günlər, bayramlarla əlaqədar olaraq axtarış sisteminin əsas səhifəsində görünən rəsmlər, fotolar, oyunlar və sairləridir. Axtarış sistemi Amerikanın "Google Inc" şirkətinə məxsusdur. Sistem 8 milyarddan çox veb-səhifəni indeksasiya edir. Eyni zamanda, 2009-cu ildən başlayaraq 191 dildə yazılmış informasiyanı tapa bilir. "Google", eyni zamanda, PDF, RTF, PostScript, Microsoft Word, Microsoft Excel, Microsoft PowerPoint və sair formatlarda olan sənədlərin axtarılmasını dəstəkləyir.

"Google" Stenford Universitetinin tələbələri Larri Peyc və Sergey Brin tərəfindən yaradılıb. 1996-cı ildə "BackRub" axtarış sistemi üzərində işləyən tələbələr, bu sistemdə istifadə etdikləri alqoritm əsasında 1998-ci ildə "Google" sistemini yaradıblar, baxmayaraq ki, "google.com" domen adı 1997-ci il sentyabrın 15-də qeydiyyatdan keçib.

Xatırladaq ki, Lütfi Zadə 1921-ci il fevralın 4-də Bakının Novxanı kəndində doğulub. O, bir çox xarici ölkə akademiyalarının üzvü olub. Lütfi Zadə çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur. Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır. Təkcə 1990-2000-ci illərdə onun əsərlərinə 36 mindən çox istinad edilib. Lütfi Zadə Berkli Universitetinin ömürlük professoru seçilmiş yeganə şəxs idi. O, NASA və NATO-nun aparıcı mütəxəssisi olub. Həmçinin yaşadığı Berkli şəhərində öz adına olan "İnstitute Zadeh-ZIFT" İnformasiya Texnologiyaları İnstitutuna rəhbərlik edib. Lütfi Zadə alman alimi Maks Plankdan sonra dünyada ikinci alimdir ki, sağlığında həm özünün, həm də nəzəriyyəsinin adını daşıyan elmi mərkəz yaranıb.

Lütfi Zadənin zəngin elmi fəaliyyəti Azərbaycan dövləti tərəfindən də hər zaman yüksək qiymətləndirilib, 2011-ci ilin fevralında Prezident İlham Əliyevin Sərəncamı ilə dünya şöhrətli alim texnologiyaların inkişafına verdiyi töhfələrlə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edilib.

Lütfi Zadə 2017-ci il sentyabrın 6-da ABŞ-ın Kaliforniya ştatında 96 yaşında dünyasını dəyişib. Alimin nəşi öz vəsiyyətinə uyğun olaraq, Azərbaycana gətirilib və Birinci Fəxri Xiyabanda dəfn edilib.

**Məlum hadisəni müsbət dəyərləndirən internet-media eksperti Səbuhi Abbasov "Şərq"ə "Google" axtarış sisteminin son bir neçə ildə dünya üçün mühüm əhəmiyyət kəsb edən hadisələri "dudl" sisteminə qoşmağa başladığını bildirib:**

"Bu bir növ müxtəlif sahələr üzrə insanları stimullaşdırır. "Google" axtarış sistemi bununla dünyada müxtəlif istiqamətlərdə tanınmış şəxsləri üzə çıxarır və ya müxtəlif ölkələr üçün əlamətdar olan günləri dünya miqyasına çatdırır. Yadınızdadırsa, 18 oktyabr Azərbaycanın müstəqillik günü ilə bağlı da bu axtarış sistemində "dudl" hazırlanmışdı. Bu, təbii ki, ölkəmizin dünya miqyasında tanınmasında önəmli addım idi".

**S.Abbasov Lütfi Zadə haqqında danışarkən onun qeyri-səlis məntiq nəzəriyyəsinin banisi kimi tanınmış bir alim, eyni zamanda, heç vaxt milli kimliyini danmayan insan olduğunu söyləyib:**

"O, azərbaycanlı olduğunu hər zaman böyük qürur hissi ilə deyib. Dünyasını dəyişməzdən öncə belə övladlarına Azərbaycanda dəfn olunmaq istədiyini bildirib. Belə bir şəxs üçün "Google" axtarış sisteminin "dudl" hazırlaması təbii ki, qürurvericidir. Bu addım alimi tanımayanlar üçün də böyük şansdır".

*İnternet-media eksperti Lütfi Zadə adını eşidib, onun elmi fəaliyyətindən xəbərsiz olan şəxslərin, artıq bu axtarış sistemindəki "dudl" vasitəsilə onunla maraqlanacağını və dünya elminə verdiyi töhfəni biləcəklərini diqqətə çatdırıb:*

"Hesab edirəm ki, burada sevindirici hal təkcə ölkəmizin tanınması deyil, bununla yanaşı, dünya elminə töhfə verən şəxsin imzasının tanınmasıdır".

*Sonda S.Abbasov bu prosesin dünyanın Azərbaycan elmi ilə maraqlanmasına texniki imkanlar yaradacağını xüsusi vurğulayıb.*

**Günəş Mərd**

# "Nar" milli internet resurslarına dəstək olur

**Azərbaycanda milli internet resurslarının inkişafına dəstək məqsədilə, yüksək keyfiyyətli mobil rabitə və internet təminatçısı kimi "Nar" növbəti dəfə "NETTY" milli internet mükafatına dəstək olur.**

Müsabiqədə iştirak üçün artıq "NETTY" təşkilat komitəsinə 6 əsas nominasiya üzrə 200-dən çox müraciət daxil olub. Növbəti mərhələdə Ekspertlər Şurası və Virtual Münsiflər heyəti "Dövlət və Cəmiyyət", "Biznes və Maliyyə", "Elm, Təhsil və İnnovasiya", "Səhiyyə, İdman və Turizm", "İnformasiya və Xəbərlər" və "Mədəniyyət, İncəsənət və Yaradıcılıq" nominasiyaları üzrə təqdim edilən layihələri qiymətləndirəcək.

Xatırladaq ki, bu gün müsabiqədə iştirak üçün müraciətlərin qeydiyyatının son günüdür. Qeydiyyat 30 noyabr saat 00:00-dək açıqdır. Müraciətlər netty.az/registration səhifəsi üzərindən həyata keçirilir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

**Elan**

Allahverdiyev Rəfail Qədəm oğluna məxsus 242726-242750 nömrəli YeloBank çek kitabçası 27 noyabr 2021 -ci ildə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Əsgərova Günay Ramiz qızına verilmiş hərbi bilet AD0054558, Nazirliyin giriş kartı, hərbi hissənin giriş vəsiqəsi, maaş kartı itdiyi üçün etibarsız sayılır.

# Soyuq havada əlləri isti su ilə yumaq ziyanlıdır

## Dermatoloq əllərə qulluq zamanı diqqət yetirməli olduğumuz bir sıra vacib məqamları sadalayıb

**Havaların soyuması ilə dəri quruluğundan şikayət edənlərin sayı da artıb. Bu quruluq daha çox əllərimizdə özünü büruzə verir. Bəs bunun başlıca səbəbləri nələrdir? Soyuq havalarda əllərə qulluq zamanı hansı məqamlara diqqət yetirməliyik? Mövzunu dermatoloq Fərhad Qarayev "Şərq"ə dəyərləndirib.**

O, qış mövsümü ilə əlaqədar bu hala əksər insanda rast gəlindiyini söyləyib: "Dərimiz lif təbəqə ilə örtülüb. Bəzi nahiyələrimizdə daha çox, misal üçün, üz, sinə, kürəkdə piy ifraz edən vəzilər var. Digər nahiyələrdə də qoruyucu, gözəgörünməz nazik təbəqə mövcudur. Sadə dildə desək, bu, yağ təbəqəsidir. Həmin təbəqə həm dərini xarici zərərli faktorlardan qoruyur, həm də dərinin nəmliyini təmin edən suyun buxarlanmasının qarşısını alır. Qışda sərt hava şəraiti, yayda ultrabənövşəyi şüalar, bu və ya rütubətsiz iqlimi olan coğrafiya dəriyə mənfi təsir göstərən amillərdir".

Dermatoloq dəri qatına mənfi təsir edən amillər arasında belə təbii proseslərdən əlavə insanların özünün də süni şəkildə yaratdığı amillərin olduğunu vurğulayıb: "Buna misal olaraq həddən artıq kimyəvi maddələrdən istifadəni göstərə bilərik. Sual verilə bilər, quruma, çatlama kimi belə hallar nəyə görə daha çox əllərdə müşahidə olunur? Məlumdur ki, gündəlik həyatda əllərimizi tez-tez yuyuruq. Bu zaman lif təbəqəni də yuyub aparırıq. Dəri isə onu bərpa etməyi çatdırmır, zədələnir. Quruluq nəticəsində əl üstündə qabıqlanma baş verir. Dəri kifayət qədər su itirdikdən sonra da elastikliyini itirir".



**F.Qarayev əllərə qulluq zamanı diqqət yetirməli olduğumuz bir sıra vacib məqamları sadalayıb:**

"Dəri lif təbəqəni sintez etməyi çatdırmırsa, biz özümüz onu əvəz etməliyik. Bu məqamda nəmləndirici kremlərdən istifadə zəruridir. Nəmləndirici seçərkən yağ əsaslı olmasına diqqət etməliyik. Su əsaslı olanlardan uzaq durmalıyıq. Yağ əsaslılar həm dərini yaxşı nəmləndirir, həm də onda davamlı qoruyucu təbəqə yaradır. Əllər yuyularkən də bəzi qaydalara əməl olunmalıdır. Əl yuduğumuz sabunlar nəmləndirici əsaslı olmalıdır".

*Dermatoloq soyuq hava şəraiti ilə əlaqədar olaraq bir çox insanların əllərini qaynar su ilə yuduğunu, bununsa dəriyə ciddi zərər vurduğunu diqqətə çatdırıb:*

"Əlləri mümkün qədər ilıq su ilə yumaq və hər dəfə yuduqdan sonra nəmləndirmək lazımdır".

**Günəş Mərd**


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com


# Virus bizi tanıyır, biz də virusu

## "Omicron" ştamına yoluxmada ölüm faizinin artması gözlənilmir



"Omicron" adı koronavirusun yeni variantı (B.1.1.529) ilk dəfə Cənubi Afrika Respublikasında yoluxma sayının artmasından şübhələnilərək aparılan araşdırmalar nəticəsində öz təsdiqini tapıb. Ancaq xəstəlikdən ölüm hallarının artması sadəcə virusun mutasiyasının çoxluğu ilə deyil, eyni zamanda yoluxma hallarının sayının artması ilə də əlaqələndirilə bilər. Bu baxımdan bu mutasiyanın əvvəlkilərdən daha yoluxucu və ya daha öldürücü olub-olmadığı hələlik bilinmir. Bu istiqamətdə tədqiqatlar davam etdirilir. Xəstəliyin müalicə və diaqnostikası əvvəlki metodlarla davam etdirilir. Yəni heç bir dəyişiklik yoxdur. Virusdan qorunma yolları da eynilə qalır. Fərdi

*(Əvvəli səh: 8-də)*

**"Mövcud vaksinlər ağır yoluxma və ölüm hallarına qarşı effektiv olaraq qalmaqdadır. COVID-19 virusunun yayılmasını azaltmaq üçün görüləcək ən effektiv tədbirlərə 1 metrdən az olmayaraq məsafə saxlamaq, üzə sıx yapışan tibbi maska taxmaq, məkanda havalandırmanı yaxşılaşdırmaq üçün pəncərələri açmaq, pis havalandırılan və ya insanların çox olduğu məkanlara getməmək, əlləri təmiz saxlamaq, öskürərkən və ya asqırarkən ağzı qol bükümü və ya parça ilə tutmaq, vaxtlı-vaxtında peyvənd olunmaq daxildir".**

Koronavirusun yeni variantlarına qarşı mübarizədə ənənəvi metodlardan istifadə edilir. Bunu isə Trend-ə açıqlamasında həkim-infeksionist Vasif Əliyev deyib. Onun sözlərinə görə, yeni yaranan "Omicron" variantının öldürücülük qabiliyyətinin digərlərindən yüksək olub-olmadığı ilə bağlı hələlik məlumat yoxdur. Ümumdünya Səhiyyə Təşkilatının

***"Ona görə də bu yeni ştam əvvəlkilərdən güclü olmayacaq, ömrü də uzun olmayacaq. Qorunma üsulları eynidir. İnsanlar özlərini qorumalı, kütləvi yerlərə, məclislərə getməkdən bacardıqca uzaq durmalıdırlar"***

gigiyena qaydalarına əməl etməklə yanaşı, maska taxılması, ictimai yerlərdə sosial məsafənin gözlənilməsi, həmçinin vaksinasiyadır. Hələ ki, virus yenidir. Əlavə məlumat olarsa, ÜST-dən bildiriləcək və biz də bunu ictimaiyyətə açıqlayacağıq". Qeyd edilir ki, ÜST-nin açıqlamalarına görə, bu variant bəziləri üçün narahatlıq doğuran çox sayda mutasiyaya malikdir. İlkin tapıntılar yeni mutasiyanın daha yüksək yoluxma riski daşıdığı yönündədir. Cənubi Afrika Təbiblər İttifaqının sədri Angeliku Kutzi isə açıqlamasında qeyd edib ki, yeni variantın simptomları əvvəlkilərdən çox fərqli və yüngüldür. Və xəstələrin əksəriyyəti vaksinasiya olunmayan şəxslərdir. Onun sözlərinə görə, Vuhan və Delta variantlarından fərqli olaraq buna yoluxanların heç biri dad və iybilmə hissiyatını itirmir, bir-iki günlük əzələ ağrısı və yorğunluqla müşahidə olunan yüngül bir xəstəlik kimi başlayır. Artıq "BioNTech" və "Moderna" şirkətləri mövcud vaksinlərin yeni varianta qarşı təsirlərini öyrənmək üçün araşdırmalara başlayıblar. Həmçinin, ayrıca olaraq "Moderna" "Omicron"a qarşı xüsusi buster doza üzərində çalışmalara başlanılacağını açıqlayıb. Yeni varianta təkcə Cənubi Afrikada deyil, Belçika, İngiltərə, Almaniya və Çexiya kimi Avropa ölkələrində də rast gəlinib.

**Pulmonoloq Eldar Zeynalov "Şərq"ə açıqlamasında qeyd etdi ki, "Omicron" variantı ilə bağlı böyük təhlükə gözlənilmir:** - Hesab edirəm ki, həyəcanlanmağa ehtiyac yoxdur. İstər "Delta" ştamı olsun, istər "Omicron", ya başqası, bunlar eyni virusun - COVİD-19-un mutasiyaya uğramış variantlarıdır. Heç bir variant əvvəlkindən güclü olmur. Yalnız xəstəliyin gedişatında fərqliliklər yarana bilir. Məsələn, COVİD-19-a ilkin yoluxma mərhələlərində qoxubilmənin itməsi yox idi, bu, ikinci "dalğa"da özünü göstərdi. Ondan sonrakı "dalğa"da daha çox burun axması müşahidə edildi. Məsələn, COVİD-19-a uşaqlar arasında yoluxma yox idi. Amma "Delta" ştamına uşaqlar da yoluxdu. Bu şəkildə fərqliliklər ola bilir. "Omicron" ştamına yoluxmada böyük yüksəliş, ölüm faizinin artması gözlənilmir. Çünki insanlarda artıq müəyyən qədər immunitet formalaşıb, necə deyərlər, virus bizi tanıyır, biz də virusu. Peyvəndləmə kampaniyası da müsbət təsirini göstərir. Ona görə də bu yeni ştam əvvəlkilərdən daha güclü olmayacaq, ömrü də uzun olmayacaq. Qorunma üsulları eynidir. İnsanlar özlərini qorumalı, kütləvi yerlərə, məclislərə getməkdən bacardıqca uzaq durmalıdırlar. Ən əsası isə stresə ehtiyac yoxdur. Stres, həyəcan orqanizmin gücünü zəiflədir, yoluxma ehtimalı da artır. "Omicron" variantını sakit, panikasız qarşılamalıyıq.

**E.Zeynalov yeni ştama qarşı vaksin məsələsinə də toxundu:**

- Ümumiyyətlə, respirator viruslara qarşı daimi vaksin olmur. Çox güman ki, yeni ştamlar yarandıqca, onlara qarşı yeni vaksinlər də tələb olunacaq. Çünki əvvəlki vaksinlər yeni ştama qarşı təsirsiz ola bilər.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2488



## Tora balıq yox, çöl donuzu düşüb

### Balıqçılar həyəcan keçirib, özlərini itiriblər



**Türkiyənin Yozqat bölgəsində su anbarına atdıqları toru çətinliklə çəkən balıqçılar, böyük bir balıq tutduqlarını düşündülər. Tora ilişən ovun çöl donuz olduğunu görüb çaş-baş qaldılar.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Yozqatın Çəkərək qəsəbəsində səhər tezdən gəmiləriylə su hövzəsinə çıxan balıqçılar, sazan ovlamaq niyyətində idilər. Torlarını suya buraxan balıqçılar bir müddət sonra onu çəkmək üçün hərəkətə keçdilər. Balıqçılar ov ağır olduğuna görə xeyli zorlandılar. Toru çətinliklə də olsa suyun üzünə çıxartdılar və ovun çöl donuzu olduğunu gördülər. Balıqçılar, ölmüş halda olan donuzu gəmiylə sahilə çıxardıblar.

*Qəsəbədə balıqçılıqla məşğul olan İsmayıl İgid, gördüklərindən həyəcan yaşadıqlarını söyləyir:*

"Balıq tutmaq üçün suya tor atdıq. Sahildən keçməyə çalışan donuz su anbarına düşüb, ordan da bizim torumuza ilişib. Donuzu təsadüfən fərq etdik. Əvvəl balıq sandıq, amma yaxınlaşanda donuz olduğunu gördük. Arada-sırada qarşı tərəfə keçən donuz sürülərini görürdük. Torumuza ilişən donuz ölmüşdü. Hər gün bir macəra ilə qarşılaşırıq, bugünkü macəramız da donuz oldu".

**Turan**

## Anomal hal...

### Moskvada hava rekord dərəcədə isinib



**Moskva şəhərində son 3 gündə havanın temperaturu dekabr üçün gözlənilməyən dərəcədə isinib.**

Belə ki, 30 noyanrda son 50 ildə ilk dəfə hava 7,5 dərəcə yüksəlib. Eləcə də şəhərdə rekord dərəcədə aşağı atmosfer təzyiqi qeydə alınıb. Medicina.az xəbər verir ki, sinoptiklər yağışların 69 ildə görünən ən güclü yağıntı olacağını proqnozlaşdırıb.

*Qeyd edək ki, dünyada qlobal istiləşmə problemləri artır və mütəxəssislər havaların rekord dərəcədə dəyişəcəyini proqnozlaşdırır.*




# Virus bizi tanıyır, biz də virusu

### "Omicron" ştamına yoluxmada ölüm faizinin artması gözlənilmir






**"İlkin məlumatlara görə, "Omicron" ştamı COVID-19 infeksiyasına yüksək təkrar yoluxma riskinə malikdir, yəni xəstəliyi artıq keçirmiş şəxslərin bu ştama yoluxma riski virusun digər variantlarına yoluxma riskindən daha çoxdur".**

Bu, Ümumdünya Səhiyyə Təşkilatının məlumatıdır. Məlumatda daha sonra qeyd edilir ki, Cənubi Afrikada xəstəxanaya yerləşdirmə halları artmaqdadır, lakin bu, məhz "Omicron" ştamına yoluxanların deyil, virusun bütün ştamlarına yoluxanların sayının çoxluğu ilə əlaqədar ola bilər. Hazırda "Omicron" ştamı ilə əlaqəli simptomların digər variantların simptomlarından fərqlənməsini iddia etməyə əsas verən heç bir məlumat yoxdur. Yoluxma haqqında ilk məlumatlar xəstəliyi daha yüngül keçirən gənclər arasında aparılmış universitet araşdırması zamanı əldə olunub, lakin "Omicron" variantının ağırlıq səviyyəsini tam anlamaq üçün bir neçə gündən bir neçə həftəyədək vaxt tələb oluna bilər. "COVID-19-un hazırda dünyada geniş yayılmış "Delta" ştamı da daxil olmaqla bütün variantları, xüsusən də daha həssas insanlarda ağır xəstəliklərə və ya ölümə səbəb ola bilər. Bu səbəbdən, profilaktikaya xüsusi diqqət yetirilməlidir". ÜST bildirir ki, peyvəndləmə hələ də xəstəliyə ağır yoluxma və ölüm hallarının azaldılması baxımından həlledici əhəmiyyətə malikdir:

> ***"Ona görə də bu yeni ştam əvvəlkilərdən güclü olmayacaq, ömrü də uzun olmayacaq. Qorunma üsulları eynidir. İnsanlar özlərini qorumalı, kütləvi yerlərə, məclislərə getməkdən bacardıqca uzaq durmalıdırlar"***

(Davamı səh: 7-də)

***Məlahət Rzayeva***

## Tez üçüncü dozanı vurdurun!

### ABŞ-ın baş infeksionisti Afrika ştammından qorunma yolunu göstərdi



**ABŞ baş infeksionisti Entoni Fauçi prezident Baydenə məruzəsində yeni Omikron ştammından qorunmaq üçün yeganə yolu açıqlayıb.**

**İnfeksionist revaksinasiyanın ən etibarlı yol olduğunu deyib.**

**"Bizə 2 həftə vaxt lazımdır ki, bu ştammın yoluxuculuğu, ağırlıq dərəcəsi və digər təsirləri barədə dəqiq informasiya əldə edək. 2 doza peyvənd olunmuşların buster dozanı vurdurması istənilən mutasiyadan ağırlaşmanın qarşısını ala bilər".**

**Ağ Ev ekspertləri bütün peyvənd olunmuş şəxslərə mümkün qədər tez üçüncü dozanı vurdurmağa çağırır.**

**Kim ki, hələ peyvənd olunmayıb, təcili olunsun. Hazırda ABŞ-da 6 ay öncə Pfizer vaksini vurduran hər kəs üçüncü dozaya dəvət olunur.**

## 9 gündür yoxa çıxan 17 yaşlı qız tapıldı

### Sevgilisinə görə atası ilə mübahisə edib...



**Türkiyənin Aksaray vilayətində atası ilə mübahisə edəndən sonra yoxa çıxan 17 yaşlı qız dostunun evində tapılıb.**

**Mətbuat.az xəbər verir ki, Edanurun yeri 9 gün sonra müəyyən edilib. Məlumata görə, qızını oğlanla görən ata, evə gələndən sonra qızına etiraz edib. Onlar mübahisə edib. Ardınca isə qız evdən çıxıb və qayıtmayıb.**

**Axtarışlar nəticəsinə qızın oğlan dostunun evində olduğu məlum olub.**



# Ümid var ki...

### Professor Alşteyn: "Məhz "Omicron" ştammı ilə koronavirus zəifləyəcək"

**"Delta "Omicron"a nisbədən daha aşağı sürətlə yayılmışdı. Onu 2020-ci ilin noyabrında aşkar etdilər, amma bizə 4-5 ay sonra çatdı.**

"Omicron" isə 2 həftə ərzində dünyaya yayılıb. Virusun sürətlə yayılmasından yox, daha aqressiv və patogen olmasından qorxmaq lazımdır".

Medicina.az xəbər verir ki, bunu professor virusoloq Anatoliy Alşteyn bildirib.

"Ümid var ki, məhz bu ştammda ağır gedişat və ölüm sayı az olacaq. Çünki bu vaxta qədər "Omicron"dan ölüm faktı qeydə alınmayıb. Daha çox sağlam, möhkəm gənclər yoluxub. Halbuki Delta uşaq və gəncləri daha tez ağırlaşdırırdı. Bu da məhz "Omicron"la koronavirusun zəifləyib, qrip kimi olacağı fikrini artırır.

Yeni mutasiyada 30-dan çox spaykzülal (yəni virusun üzərindəki tac çıxıntılar) olması onu göstərir ki, virusun geni stabil deyil. Belə infeksiyalar daha az təhlükəli olur".

## Torpağın altından gələn səs qorxuya saldı

### Ərazini qazan sakinlər üzləşdikləri mənzərə qarşısında heyrətə gəliblər






**Türkiyənin Şanlıurfa vilayətinin Bozova kəndində qəribə hadisə baş verib.**

"Şərq" "Xəzər Xəbər"ə istinadən xəbər verir ki, torpağın altından gələn səs kənd sakinlərində həyəcan yaradıb. Məlumata görə, ərazidə qazıntı işləri aparan sakinlər, üzləşdikləri mənzərə qarşısında heyrətə gəliblər. Onlar bir neçə gündür yoxa çıxan atın kanalizasiyada olduğunun şahidi olublar. Bildirilir ki, atın sərt həmlələri nəticəsində əmələ gələn səs kanalizasiya boşluğunda əks-səda doğurduğu üçün uzaq məsafədən eşidilib.

Bildirilir ki, atın düşdüyü kanalizasiyanın ətrafı beton olduğu üçün atı çıxarmaq olduqca çətin olub. Sakinlər betonu dağıdaraq atın boşluqdan çıxmasına şərait yaradıb.

*Baytarın müayinəsi zamanı atın normal olduğu məlum olub.*

## Motosikletli 4 kuryeri fırtınadan qorudular

### Avtobus sürücülərinin xeyirxah davranışı sosial şəbəkələrdə müsbət müzakirələrə səbəb olub



**Xəbər verdiyimiz kimi, Türkiyədə əsən güclü külək İstanbul da daxil olmaqla, ölkənin bir neçə yerində ciddi fəsadlar törədib.**

"Qafqazinfo" bildirir ki, İstanbulda fırtına zamanı bələdiyyə avtobuslarının sürücülərinin xeyirxah davranışı sosial şəbəkələrdə müsbət müzakirələrə səbəb olub. Belə ki, motosikletli 4 kuryer "15 iyul şəhidlər körpüsü" üzərində fırtına səbəbindən hərəkət etməkdə çətinlik çəkib. Kuryerlərin çətin vəziyyətdə olduğunu görən iki avtobus sürücüsü onları qoruyaraq baş verə biləcək qəzanın qarşısını alıblar. Hadisənin görüntüləri sosial şəbəkələrdə yayılıb. İstanbulun meri Ekrem İmamoğlu da öz növbəsində avtobus sürücülərinin jestini əks etdirən görüntünü paylaşıb və hadisəni "Dost yolda tanınır" deyə şərh edib.

## Hadisə ilə sevgilisi ölümdən dönüb



**Müğənni Hadisə ilə sevgilisi, iş adamı Mehmet Dinçer qəzaya düşüb.**

Türk mediası xəbər verir ki, hadisə İzmirdə qeydə alınıb. Cütlük avtomobil hərəkətdə olarkən ön təkərin partlaması nəticəsində ölümdən dönüb. Olay zamanı Hadisənin huşunu itirdiyi bildirilib. Hazırda vəziyyətləri yaxşı olan cütlük başqa nəqliyyat vasitəsi ilə İstanbula geri dönüb.

## Rihanna bu ölkənin Milli Qəhrəmanı oldu



**Məşhur müğənni Rihanna Barbados ölkəsinin Milli Qəhrəmanı adına layiq görülüb.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, bu barədə ölkənin Baş naziri Mia Mottli respublikanın elan edilməsi münasibəti ilə keçirilən mərasimdə bildirib.

Hökumət başçısı çıxışı zamanı "Almaz kimi parlamağa və ölkənin qüruru olmaqda davam et" sözləri ilə onu təltif edib.

Qeyd edək ki, 1988-ci ildə Barbadosda anadan olan Rihanna müğənnilik karyerasını davam etdirmək üçün 16 yaşında ABŞ-a köçüb. O, doqquz "Qremmi" mükafatının sahibi və dünyada ən çox satış edən sənətçilərdən biridir. İfaçı 2018-ci ildən Barbadosun ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiridir.

*Noyabrın 30-da Barbados ada ölkəsi Böyük Britaniya Taxt-Tacının hökmranlığından çıxıb.*